23 dekabr 2022 №95 (1968)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Prezident İlham Əliyevi təbrik edirlər

Dekabrın 24-ü Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin doğum günüdür. Dövlət başçısının 61 yaşı tamam olur. Bu münasibətlə müxtəlif ölkələrdən Azərbaycan Prezidentinə təbrik məktubları gəlir.

Çin Xalq Respublikasının Sədri Si Cinpin, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko, Tacikistan Prezidenti Emoməli Rəhmon, Moldova Respublikasının Prezidenti Maya Sandu, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, İordaniyanın Kralı II Abdullah ibn Al Hüseyn, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Türkmənistanın Prezidenti Sərdar Berdiməhəmmədov, digər dövlət və hökumət başçıları İlham Əliyevi təbrik edir, ona ali dövləti fəaliyyətində daha böyük uğurlar, Azərbaycan xalqına əmin-amanlıq, tərəqqi və firavanlıq arzulayırlar.

## Mədəniyyət naziri vəzifəsinin müvəqqəti icrası Adil Kərimliyə həvalə edilib

Prezident İlham Əliyev dekabrın 22-də Anar Qabil oğlu Kərimovun Azərbaycan Respublikasının mədəniyyət naziri vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb.

Dövlət başçısının digər sərəncamı ilə Adil Qabil oğlu Kərimli mədəniyyət nazirinin birinci müavini təyin edilib. Mədəniyyət naziri təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası nazirin birinci müavini Adil Kərimliyə həvalə edilib.

Adil Kərimli bu təyinatadək Heydər Əliyev Mərkəzinin direktorunun birinci müavini vəzifəsində çalışıb.

səh. 2

## Naxçıvanda Prezidentin səlahiyyətli nümayəndəliyi təsis olunub

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyi təsis edilib. Prezident İlham Əliyev dekabrın 22-də bununla bağlı fərman imzalayıb.

Fərmanla "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi haqqında Əsasnamə" də təsdiq edilib.

Fərmana əsasən, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinə dövlət başçısı tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən və birbaşa ona tabe olan Naxçıvan Muxtar Respublikasında Prezidentin səlahiyyətli nümayəndəsi rəhbərlik edir.

Səlahiyyətli nümayəndə Naxçıvan Muxtar Respublikasının ərazisində Azərbaycan Respublikasının Prezidentini təmsil edən vəzifəli şəxsdir və Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi səlahiyyətləri həyata keçirir.

davamı səh. 2-də

## Ankarada "Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru" kitabının təqdimatı




Azərbaycanın Türkiyədəki Səfirliyi, Türkiyənin Milli Müdafiə Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Türkiyə Prezident Administrasiyasının Millət Kitabxanasında "Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru" kitabının təqdimat mərasimi keçirilib.

Mərasimdə iki ölkənin müdafiə nazirləri, səfirlər, millət vəkilləri, alimlər, qardaş ölkədə yaşayan və çalışan azərbaycanlılar iştirak ediblər.

səh. 2

## "Yeni adlar"da qanun və tar gecəsi



Mədəniyyət Nazirliyi tərəfindən bu ilin mart ayından həyata keçirilən "Yeni adlar" musiqi layihəsi davam edir. İstedadlı gənclər böyük səhnələrdə ölkəmizin aparıcı kollektivlərinin müşayiətində öz məharətlərini göstərirlər.

səh. 3

# Müasir dünyada yalnız neft və qazla tərəqqi olmur

"Prezident Əliyev Azərbaycanın daha böyük təbii ehtiyatlara malik ölkələrdən fərqini göstərə bildi"

Bir ay bundan əvvəl Prezident Vuçiçin dəvəti ilə mən Serbiyada rəsmi səfərdə olmuşam. Şadam ki, əziz dostum mənim dəvətimi qəbul edib və bir ay keçmədən Bakıya səfər edib. Bu onu göstərir ki, əlaqələrimizin dinamikası, doğrudan da, çox müsbətdir. Bu ay ərzində bizim müvafiq strukturların rəhbərləri bir-biri ilə təmasda olmuşlar və bu təmaslar davam edir. Bir sözlə, biz istəyirik ki, bundan sonra da ikitərəfli əlaqələr sürətlə inkişaf etsin və qəbul edilmiş qərarlar vaxt itirmədən icra olunsun.



Prezident İlham Əliyev bu sözləri dekabrın 21-də Bakıda Serbiya Prezidenti Aleksandar Vuçiç ilə görüşdən sonra mətbuata bəyanatında deyib.

Dövlət başçısı vurğulayıb ki, Serbiya və Azərbaycan strateji tərəfdaşdırlar, strateji tərəfdaşlığa dair bir neçə sənəd imzalanıb. Belə gözəl strateji tərəfdaşlıq münasibətlərindən və eyni zamanda, şəxsi dostluq münasibətlərimizdən istifadə edərək, əlbəttə, biz ümid edirik ki, bütün sahələrdə bunun nəticəsi olacaq. Xüsusilə nəzərə alsaq ki, Azərbaycan və Serbiya ərazilərindən beynəlxalq nəqliyyat dəhlizləri keçir, burada da uzlaşma və bağlantının yaradılması üçün bizim müvafiq qurumlar fəal işləməlidir. Energetika sektoru əməkdaşlığımızın bir hissəsidir: "Azərbaycanın təbii resursları artıq müxtəlif istiqamətlər üzrə ixrac edilir, həmçinin Avropa qitəsinə, o cümlədən Serbiyaya qonşu olan ölkələrə. Həm təbii qaz, həm elektrik enerjisi ilə əlaqədar əməkdaşlıq üçün imkanlar var, müvafiq danışıqlar aparılmışdır. Gələn ildən başlayaraq Azərbaycanın elektrik enerjisinin Serbiyaya ixrac edilməsi üçün əminəm ki, əməli addımlar atılacaqdır.

Onu da bildirməliyəm ki, dörd gün bundan əvvəl Azərbaycanın elektrik enerjisinin Avropaya çatdırılması üçün müvafiq saziş imzalanmışdır. Qara dənizin dibi ilə çəkiləcək kabel Azərbaycanı bu sahədə də Avropa üçün önəmli təchizatçı kimi təsdiqləyəcək. Bütün bunlar yeni imkanlar, yeni üfüqlər açır və biz bu sahədə, əlbəttə ki, ikitərəfli formatda və çoxtərəfli formatda əməkdaşlıq edəcəyik".

Prezident İlham Əliyev qeyd edib ki, iki ölkədə müdafiə sənayesi sahəsində də potensial var və bu potensialın birləşdirilməsi üçün praktiki addımların atılması gözlənilir.

"Bir sözlə, ikitərəfli əlaqələrə bir daha nəzər salarkən görürük ki, bütün sahələrdə bu əlaqələr dostluq və qarşılıqlı anlaşma üzərində qurulmuşdur. Əminəm ki, biz gələn ili də bu ab-hava şəraitində keçirəcəyik. Çünki bu il ikitərəfli əlaqələrimiz üçün çox uğurlu olub", – deyə İlham Əliyev bildirib.

Serbiya Prezidenti hər dəfə Bakıya gələndə böyük tərəqqinin şahidi olduğunu deyib.

davamı səh. 2-də

## "Rauf Hacıyev – 100" festivalında elmi-yaradıcılıq diskussiyası

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə görkəmli bəstəkar, tanınmış ictimai xadim, Azərbaycan və SSRİ-nin Xalq artisti Rauf Hacıyevin (1922-1995) 100 illiyi münasibətilə 3-27 dekabr tarixlərini əhatə edən musiqi festivalı keçirilir.




Festival çərçivəsində dekabrın 22-də Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində elmi-yaradıcılıq diskussiyası keçirildi.

Tədbiri muzeyin direktoru Əməkdar mədəniyyət işçisi Alla Bayramova açaraq görkəmli sənətkarın mədəniyyət xəzinəmizə verdiyi töhfələrdən danışdı. Qeyd etdi ki, yüksək fikirlər, nəcib duyğularla yaşayan Rauf Hacıyevin bənzərsiz əsərlərində parlaq milli kolorit, hərarət, səmimiyyət yüksək səviyyədə hiss olunur.

Qeyd edildi ki, R.Hacıyev həm də ötən əsrin 60-cı illərindən başlayaraq ictimai işlərdə də fəal çalışıb. O, M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının direktoru, Azərbaycan SSR-in mədəniyyət naziri vəzifələrində işləyib. Nazir işlədiyi illərdə onun təşəbbüsü ilə Azərbaycan Dövlət Xor Kapellası, Azərbaycan Dövlət Rəqs Ansamblı kimi sənət kollektivləri yaradılıb.

davamı səh. 3-də

## "Əminəm ki, Şuşa da turistlərin maraq mərkəzinə çevriləcək"

Əminəm ki, Şuşa da mədəniyyət, sənət və digər sahələrdə turistlərin maraq mərkəzinə çevriləcək.

Bu sözləri Türkiyənin Bursa Böyükşəhər Bələdiyyəsinin başqanı Alinur Aktaş "Mədəniyyət" qəzetinə açıqlamasında deyib.

Bələdiyyə başqanı bildirib ki, 2022-ci ildə "Türk dünyasının mədəniyyət paytaxtı" kimi çoxsaylı tədbirlərə evsahibliyi edən Bursanın bu estafeti 2023-cü ildə Şuşa şəhərinə ötürməsindən qürur hissi keçirir: "Bursa-2022" tədbirləri çərçivəsində bu şəhərə gələn turistlərin sayı daha da artıb. Türk dünyasından gələn turistlərin Şuşaya da axın edəcəyinə ümid edirəm. Bursada Türk dünyası ənənəvi oyunları, Nizami Gəncəvi, Yunus Əmrə ilə bağlı proqramlar, fərqli tədbirlər həyata keçirdik. Bu tədbirlərdə Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un da dəstəyi oldu. Bu tədbirlər çərçivəsində qardaş Azərbaycandan çoxlu qonaqlarımız gəldi...".

Alinur Aktaş Şuşanın da "Türk dünyasının mədəniyyət paytaxtı" olaraq rəngarəng proqramları, gözəl mənzərəsi, tarixi, ənənələri ilə bərabər dünyanın dörd bir tərəfindən turistləri özünə cəlb edəcəyinə ümid etdiyini bildirib: "Biz də bu məsələdə öz təcrübəmizi bölüşməyə və bacardığımız dəstəyi göstərməyə hazırıq. Bursa Türkiyədə turistlərin ən çox gəldiyi şəhərlərdən biridir, "mədəniyyət paytaxtı" olduqdan sonra isə şəhərimizə daha da çox turist gəlməyə başladı. Əminəm ki, Şuşa da turizm, mədəniyyət, sənət və digər mövzularda müxtəlif ölkələrdən insanların maraq mərkəzinə çevriləcək".

## Laçın-Xankəndi yolunda ekoloji aksiya 12-ci günündə

Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan Azərbaycan ərazilərində faydalı yataqların qanunsuz istismarına etiraz olaraq azərbaycanlı ekoaktivistlər və qeyri-hökumət təşkilatlarının üzvləri tərəfindən Xankəndi-Laçın yolunda, Şuşa şəhəri yaxınlığında dekabrın 12-də başlayan aksiya davam edir.



Dekabrın 22-də, dinc etirazın 11-ci günündə ekoaktivistlərin daha bir qrupu aksiyaya qoşulub. Onlar əvvəlcə aksiyada xoşagəlməz halların baş verməməsi üçün zəruri tədbirlərin görülməsi ilə bağlı məlumatlandırılıb. Aksiya iştirakçıları bütün lazımi şəraitlə təmin olunublar.

Aksiya iştirakçıları "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Azərbaycan vahiddir, sərvətinə sahibdir!", "Ekoloji cinayətə son!", "Stop ekoterror!" şüarlarını səsləndiriblər.

Axşam saatlarında etirazçılar üzərində "Save nature" yazılan ikinci böyük şarı havaya qaldırıblar.

Gün ərzində Rusiya sülhməramlılarına məxsus daha beş təchizat avtomobili ərazidən maneəsiz keçib.

Xatırladaq ki, bundan əvvəl Ermənistan mediasında etirazçıların guya Xankəndi-Laçın yolunu bağlamaları və təchizat maşınlarını buraxmamaları ilə bağlı həqiqətə uyğun olmayan xəbərlər yayılmışdı.

## AİHM Laçın dəhlizi ilə bağlı Bakının zəmanətini təsdiq edib

Dekabrın 21-də Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) Laçın yolu ilə bağlı "Ermənistan Azərbaycana qarşı" (№ 4) işində müvəqqəti tədbirlər haqqında qərar qəbul edib.

Azərbaycan Xarici İşlər Nazirliyinin qərara dair şərhində bildirilir ki, AİHM-in qərarı Üçtərəfli Bəyanata uyğun olaraq, xüsusilə "Laçın dəhlizi ilə hər iki istiqamətdə hərəkət edən şəxslərin, nəqliyyat vasitələrinin və yüklərin təhlükəsizliyi" ilə bağlı Azərbaycan tərəfindən verilən zəmanətləri təsdiq edir.

AİHM-in qərarı, həmçinin Rusiya sülhməramlı kontingenti tərəfindən yol boyu nəqliyyatın tənzimlənməsi üzrə öhdəliklərin yerinə yetirilməsi, o cümlədən humanitar və tibbi yardımların keçməsinə şərait yaradılması səbəbindən "Azərbaycan hökumətinin Laçın dəhlizindəki vəziyyətə nə dərəcədə nəzarət etdiyinin mübahisəli olduğunu və aydın olmadığını" qeyd edir.

davamı səh. 2-də

Estradamızın canlı əfsanəsi 70 illiyində Bakı səhnəsində



səh. 5

"Atabəylər: Şəmsəddin Eldəniz" serialının musiqi tərtibatı üçün müsabiqə elan olunur

səh. 7



Romada muğam və musiqi mədəniyyətimizə dair ustad dərsi

səh. 8

№95 (1968)
23 dekabr 2022
www.medeniyyet.az

# A.Q.Kərimlinin Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Adil Qabil oğlu Kərimli Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini təyin edilsin.
2. Azərbaycan Respublikasının mədəniyyət naziri təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini Adil Qabil oğlu Kərimliyə həvalə edilsin.
3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 22 dekabr 2022-ci il**

# A.Q.Kərimovun Azərbaycan Respublikasının mədəniyyət naziri vəzifəsindən azad edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq qərara alıram:

Anar Qabil oğlu Kərimov Azərbaycan Respublikasının mədəniyyət naziri vəzifəsindən azad edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 22 dekabr 2022-ci il**

# Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu Qazaxıstanla daha sıx əməkdaşlıq edəcək

Qazaxıstanın paytaxtı Astanada 20-21 dekabr tarixlərində keçirilən I Mərkəzi Asiya Media Forumunda Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva da iştirak edib.

Fonddan bildirilib ki, forumun açılışında Qazaxıstanın mətbuat və sosial inkişaf naziri Darxan Kıdıralı, Qırğız Respublikasının dövlət katibi Suyinbek Kasmambetov, Türkiyənin və Monqolustanın sabiq prezidentləri Abdullah Gül və Nambarın Enkbayar çıxış ediblər.

Tədbirdə regional identikliyin ölçülməsi, yeni medianın inkişafı, süni intellekt texnologiyaları, Mərkəzi Asiyada yaradıcı sənayelərin gələcəyi, eləcə də informasiya təminatı üçün regional və qlobal əməkdaşlıq imkanları kimi məsələlər müzakirə edilib.

***

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva Astanada Qazaxıstanın mədəniyyət və idman naziri Dauren Abayev ilə görüşüb.




Görüşdə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun fəaliyyətindən, müxtəlif ölkələrdə təşkil etdiyi tədbirlərdən söz açılıb. Fond tərəfindən təşkilatın qurucu üzv dövləti kimi Qazaxıstanın mədəniyyətinin Avropada tanıdılması, qazax ədəbiyyatının görkəmli siması – şair, bəstəkar, ictimai xadim Abay Kunanbayevin 175 illiyinə həsr olunmuş poçt markalarının İspaniyada çap edilərək dövriyyəyə buraxılması və digər layihələr yüksək qiymətləndirilib.

Fond ilə Qazaxıstan arasında qarşılıqlı əlaqələrin daha da möhkəmləndirilməsi istiqamətində əməkdaşlığın gələcək perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# Ankarada "Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru" kitabının təqdimatı

Azərbaycanın Türkiyədəki Səfirliyi, Türkiyənin Milli Müdafiə Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Türkiyə Prezident Administrasiyasının Millət Kitabxanasında "Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru" kitabının təqdimat mərasimi keçirilib.



Müdafiə Nazirliyindən verilən məlumata görə, "Qarabağ Azərbaycandır!" şüarı altında təşkil olunan mərasimdə Azərbaycanın və Türkiyənin müdafiə nazirləri, səfirlər, beynəlxalq təşkilatların təmsilçiləri, millət vəkilləri, alimlər, qardaş ölkədə yaşayan və çalışan azərbaycanlılar iştirak ediblər.

Rəsmi hissədə Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov, müdafiə naziri general-polkovnik Zakir Həsənov, Türkiyənin milli müdafiə naziri Hulusi Akar və AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun baş direktoru professor Kərim Şükürovun çıxışları dinlənilib.

Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini, Azərbaycan-Türkiyə qardaşlığını, Qarabağ zəfərini əks etdirən film nümayiş olunub.

Mərasim zəngin bədii proqramla davam edib.

Qeyd edək ki, "Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru" kitabı Bakı Şəhər İcra Hakimiyyəti ilə AMEA-nın Tarix İnstitutunun birgə nəşridir.

# Naxçıvanda Prezidentin səlahiyyətli nümayəndəliyi təsis olunub

*əvvəli səh. 1-də*

Mərkəzi və yerli icra hakimiyyəti orqanları və digər dövlət qurumları Naxçıvan Muxtar Respublikasının ərazisində fəaliyyətlərini səlahiyyətli nümayəndə ilə əlaqələndirilmiş qaydada həyata keçirməlidir.

Qeyd edək ki, dekabrın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov vəzifəsindən istefa verib.

Dekabrın 22-də Fuad Vahid oğlu Nəcəfli Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi təyin edilib. Prezident İlham Əliyev bununla bağlı sərəncam imzalayıb.

Həmin gün dövlət başçısının 2012-ci il 6 iyun tarixli fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"də də müəyyən dəyişikliklər edilib. Prezident İlham Əliyev bununla bağlı fərman imzalayıb. Əsasnamənin müvafiq bəndlərindən Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi kimi "Ali Məclisin sədri" ifadələri çıxarılıb.

***



Dekabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi vəzifəsinə təyin olunmuş Fuad Nəcəflini qəbul edib və ona müvafiq tapşırıqlarını verib.

Qəbulda Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına göstərdiyi daimi diqqəti sayəsində və birbaşa tapşırığı ilə həyata keçirilən genişmiqyaslı işlər, o cümlədən böyük infrastruktur layihələrinin həyata keçirilməsi, Naxçıvanda qazlaşdırmanın 100 faiz səviyyəsində təmin edilməsi, enerji təchizatı, müasir yolların inşa olunması, səhiyyə və təhsil obyektlərinin tikintisi, yeni iş yerlərinin yaradılması istiqamətində görülən işlər qeyd olunub.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikasına hər il dövlət büdcəsindən böyük həcmdə dotasiya ayrılıb.

Prezident İlham Əliyev tapşırıq verib ki, səlahiyyətli nümayəndə kimi Fuad Nəcəfli insanların qayğısına qalınması, korrupsiya, rüşvətxorluqla mübarizə, şəffaflıq, düzgün kadr siyasətinin həyata keçirilməsi, mərkəzi icra orqanları ilə sıx təmasda fəaliyyətlə bağlı bütün səylərini göstərsin.

Fuad Nəcəfli ona göstərilən yüksək etimada görə dövlətimizin başçısına təşəkkürünü bildirib və Prezident İlham Əliyevi əmin edib ki, bütün fəaliyyət dövlətimizin başçısının siyasəti üzərində aparılacaq, ölkə miqyasında həyata keçirilən genişmiqyaslı islahatların Naxçıvan Muxtar Respublikasında da təmin edilməsi işində səylərini əsirgəməyəcək.

# Müasir dünyada yalnız neft və qazla tərəqqi olmur

## "Prezident Əliyev Azərbaycanın daha böyük təbii ehtiyatlara malik ölkələrdən fərqini göstərə bildi"

*əvvəli səh. 1-də*

Aleksandar Vuçiç qeyd edib ki, Azərbaycanda gördüyümüz belə sürətli inkişafı müasir dünyada çox az yerdə görmək olar: "Bəziləri deyə bilərlər ki, bu, neft və qaza görədir. Mən Azərbaycandan 10 dəfə çox neft və qaz ehtiyatlarına malik olan ölkələri tanıyıram, onların vəziyyəti Azərbaycanınkından 10 dəfə pisdir. Bu isə ölkə rəhbərliyinin gücündən, Prezident Əliyevin uzaqgörənliyindən, onun Azərbaycanın və müasir dünyanın üzləşdiyi çağırışlara yaxşı bələd olduğundan xəbər verir. Bu, yaxşı baxışa malik olan ölkə rəhbərliyi ilə necə fərq yarada bildiyinizdən xəbər verir. Yenə də qısa bir hekayəni sizinlə paylaşmaq istəyirəm. 1971-1972-ci illərdə Birləşmiş Ərəb Əmirliklərindən (BƏƏ) olan yaşlı Şeyx Bin Zayed Liviyaya səfəri zamanı demişdi ki, ümid edirəm, 40 ildən sonra onun ölkəsi Liviya kimi olacaq. Liviyanın BƏƏ-dən beş dəfə çox neft ehtiyatı var. Lakin bir ölkənin hansı vəziyyətdə olduğuna, digər ölkənin isə hansı vəziyyətdə olduğuna nəzər salın. Əminəm ki, Prezident Əliyev özü ilə bir çoxlarımızın arasında və dünya miqyasında Azərbaycandan da daha böyük həcmdə təbii ehtiyatlara və xammala malik ölkələr arasında olan fərqi göstərə bildi. Prezident Əliyev kimi ölkəsinə sevgi ilə rəhbərlik etdikdə belə bir vəziyyətin şahidi oluruq. Mən bunu bizə Avropa qədər qaz və elektrik enerjisi lazım olduğuna görə demirəm. Xeyr, bizə daha az həcmdə lazımdır. Bizə bu resurslar lazımdır. Ancaq biz onlar olmadan da yaşaya bilərik. Mən bunu Prezident Əliyevə və onun işinin nəticələrinə səmimi rəğbət bəslədiyimə görə deyirəm...".

Aleksandar Vuçiç bildirib ki, Azərbaycanı Serbiyaya, Serbiyanı isə Azərbaycana qarşı döndərmək mümkün deyil. Heç kimin belə bir əməli etmək imkanı yoxdur, ya da onların üzərində bunu etmək üçün təzyiq yoxdur. Biz birlikdə əməkdaşlığın mümkün sahələrini təhlil etdik. Sözsüz ki, bizim enerji sahəsi ilə bağlı əməkdaşlıq etməli çox məsələlərimiz var. Bütün bunlar bizim üçün vacibdir: "Lakin hesab edirəm ki, biz eyni dərəcədə mühüm olan, bəlkə də daha mühüm olan bəzi yeni əməkdaşlıq sahələri açırıq. Söhbət bizim ümumi fəaliyyətimizdən, müdafiə sənayesində texnologiya mübadiləsindən və üçüncü ölkələrin bazarlarına birlikdə çıxara biləcəyimiz bəzi məhsullar üzərində aparılan işdən gedir. Çünki hesab edirəm ki, əgər buna birgə yanaşmamız olsa, Serbiya və Azərbaycan olaraq bizim böyük potensialımız var... Biz çox məsələlərlə bağlı məlumat mübadiləsinə hazırıq. Biz müəyyən yaxşı sursat, silah istehsal edirik. Biz hər şeyi birlikdə müasirləşdirməyin yollarını nəzərdən keçirməyə və özümüzü təmin etmək üçün dünya ilə ayaqlaşmağa hazırıq. Çünki bu çətin dövrdə gördük ki, böyük ölkələr qısa zamanda necə bu qədər güc itirə bilərlər, sanksiyaların təsiri, məhvedici təsiri ola bilər. Biz çox da dinc olmayacaq gələcəkdə ölkələrimizi qorumağa və təhlükəsizliyini təmin etməyə hazır olmalıyıq...".

Birgə səylərlə əməkdaşlıq üçün yeni pəncərə açılacağına ümidvar olduğunu bildirən Aleksandar Vuçiç sonda deyib: "Biz gələcəkdə güclü əlaqələrimizi və güclü dostluğumuzu necə quracağımızı bilirik. Mən inanıram ki, biz bunu ən yaxşı şəkildə xalqlarımızın maraqları naminə edəcəyik".

# "Türk dünyasına iftiralara qarşı birgə mübarizə aparmalıyıq"

Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsi və Bursa Böyükşəhər Bələdiyyəsinin birgə təşkilatçılığı ilə 21-22 dekabr tarixlərində "Türk dünyası: yeni nəsil" mediaforumu keçirilib.




Tədbirə videokonfrans formatında qatılan Türkiyə Prezident Administrasiyası Kommunikasiya İdarəsinin rəhbəri Fəxrəddin Altun çıxışında qeyd edib ki, yeni elektron media və informasiya texnologiyaları həyatımıza girməklə əlaqələrimizi sürətləndirib. Amma eyni zamanda dezinformasiya və qaralama kampaniyaları da ortaya çıxıb ki, bundan da daha çox əziyyət çəkən Türk dünyası olub.

Bu təhdidlərlə mübarizə aparmaq üçün Türk dünyasının daha geniş ortaq fəaliyyətlərinin vacibliyini vurğulayan Fəxrəddin Altun deyib ki, 2022-ci ilin may ayında İstanbulda keçirilmiş Türk Dövlətləri Təşkilatlarının media fəaliyyətlərinə məsul olan qurumların rəhbərlərinin toplantısı da bu məqsədə xidmət edib.

F.Altun Türk dünyasının bu istiqamətdə birgə fəaliyyətləri, təcrübələri bölüşməklə qarşıdakı maneələri dəf edəcəyinə inandığını bildirib: "Bu xüsusda Türk dünyası yeni nəsil media forumunu çox dəyərləndirirəm. Prezidentimiz Rəcəb Tayyib Ərdoğanın çox hallarda vurğuladığı kimi, eyni məqsədlər üçün daha sıx və bir çətir altında birləşməliyik, türk dövlətləri ilə müştərək hərəkət edərək ortaq platformalar qurmalıyıq. Türkiyə olaraq qlobal dezinformasiyaya qarşı Türk dünyasına tam dəstək verməyə hazırıq. Bu sahədə gücümüzü birləşdirməliyik, regionda və dünyada fəaliyyətlərimizi ən üst səviyyəyə qaldırmaqla daha ədalətli dünyanın yaranmasına dəstək verməliyik...".

Qeyd edək ki, "Türk dünyası yeni nəsil media fəaliyyətləri" panelində Azərbaycanı İctimai Televiziyanın Türkiyə bürosunun rəhbəri Ramin Hüseynov təmsil edib. Tədbirə Türkiyənin "Star" qəzetinin yazarı Sevil Nuriyeva da qatılıb.

**Mehparə Sultanova**
**Bursa**

# AİHM Laçın dəhlizi ilə bağlı Bakının zəmanətini təsdiq edib

*əvvəli səh. 1-də*

"Dəfələrlə müxtəlif kütləvi informasiya vasitələrində Beynəlxalq Qırmızı Xaç Komitəsinin və erməni təcili yardım maşınlarının Laçın yolu ilə sərbəst və təhlükəsiz keçdiyinə dair videosübutlar yayımlanıb. Beləliklə, müvəqqəti tədbirlər haqqında qərarda göstərildiyi kimi, Ermənistanda tibbi müalicəyə ehtiyacı olan ağır xəstələrin təhlükəsiz keçidi təmin edilib.

Azərbaycan hökuməti, Azərbaycan ərazilərində hərəkət azadlığı ilə yanaşı, Ermənistan tərəfindən Azərbaycanın təbii sərvətlərinin qeyri-qanuni istismarı, habelə onların Laçın yolu vasitəsilə daşınmasına etiraz etmək məqsədilə Laçın yolunda toplaşmış dinc etirazçıların hüquqlarına da zəmanət verir", – deyə XİN-in şərhində bildirilir.

Qeyd olunur ki, Azərbaycan, həmçinin məcburi köçkün ailələrinin və icmalarının evlərinə qayıtmasının qarşısını almaq üçün qəsdən Laçındakı mülki əhalinin evlərində yerləşdirilmiş, 2021-ci ildə Ermənistanda istehsal olunan minaların Azərbaycana daşınması üçün Ermənistan tərəfindən Laçın yolundan istifadə edilməsi ilə bağlı ciddi narahatlığını ifadə edib. Ermənilər tərəfindən qəsdən basdırılmış minalar Azərbaycanda mina qurbanlarının sayının artmasına səbəb olur. Nəticədə Vətən müharibəsinin başa çatmasından bu günədək 276 vətəndaşımız mina qurbanı olub, onlardan 3 nəfər jurnalist daxil 46 nəfər həlak olub. Həlak olan 46 nəfərdən 35-i mülki şəxsdir.



"Kobud insan hüquqları və beynəlxalq hüquq normalarının pozulmasına dair sübutlar Beynəlxalq Ədalət Məhkəməsi, Avropa Şurası və BMT Baş katibi də daxil olmaqla müxtəlif beynəlxalq qurumlara təqdim edilib.

Azərbaycan beynəlxalq hüquq öhdəliklərinə əməl etməyə davam edəcək. Ermənistanı Azərbaycana və onun əhalisinə qarşı təxribatlarını dayandırmağa çağırırıq", – deyə XİN-in şərhində vurğulanır.

əvvəli səh. 1-də

Mədəniyyət Nazirliyi İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin böyük məsləhətçisi sənətşünaslıq üzrə fəlsəfə doktoru Turan Məmmədəliyeva dedi ki, bugünkü tədbir Rauf Hacıyevə həsr olunan musiqi festivalı çərçivəsində keçirilən 4-cü diskussiyadır. Bildirildi ki, bəstəkarın yaradıcılığı Azərbaycanın musiqi mədəniyyəti tarixində özünəməxsus yer tutur. Operetta, simfoniya, oratoriya, kantata və digər janrlarda yaratdığı əsərlər bəstəkara böyük şöhrət gətirib. O, eyni zamanda Azərbaycanda mahnı janrının inkişafına töhfələr verib, kinofilmlərə və teatr tamaşalarına yaddaqalan musiqilər bəstələyib.

Tədbirə Niderlanddan videoformatda qoşulan musiqişünas, jurnalist Natəvan Hüseynova qeyd etdi ki, Rauf Hacıyevin ən çox sevdiyi musiqi janrı mahnı və operetta idi. N.Hüseynova yazdığı "Azərbaycanda caz" kitabında Rauf Hacıyevin də yaradıcılığından bəhs olunduğunu diqqətə çatdırdı.

# "Rauf Hacıyev – 100" festivalında elmi-yaradıcılıq diskussiyası




Turan Məmmədəliyeva həmin kitabı Musiqi Mədəniyyəti Dövlət Muzeyinə hədiyyə etdi.

Diskussiyada daha sonra Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinin müəllimi Raya Abbasova, sənətşünaslıq üzrə fəlsəfə doktoru Lalə Rzayeva, saksofon ifaçısı Əməkdar incəsənət xadimi Rafiq Seyidzadə Rauf Hacıyev haqqında xatirələrini bölüşdülər. Bildirildi ki, R.Hacıyevin istedadı daha çox operetta janrında parlayıb. Bəstəkarın operettaları respublikamızda bu janrın inkişafında yeni səhifə açıb. Görkəmli bəstəkarın yeddi operettasından beşi Moskva Dövlət Operetta Teatrının səhnəsində tamaşaya qoyulub. Eyni zamanda bu operettalar keçmiş SSRİ-nin digər mərkəzi şəhərlərində uğurla öz səhnə təcəssümünü tapıb.

Tədbirə Finlandiyadan onlayn qoşulan sənətkarın qızı Natella Hacıyeva ailəsi adından atasının xatirəsinə göstərilən ehtirama görə təşəkkürünü bildirdi.

**Savalan Fərəcov**

# Türkiyə səfirliyi XTNS-nin "Azərbaycan" pavilyonuna kitablar hədiyyə edib

Türkiyənin Rusiya Federasiyasındakı Səfirliyi Moskva şəhərindəki Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində (XTNS) yerləşən "Azərbaycan" pavilyonuna kitablar hədiyyə edib.



Nəşrlər Türkiyə Mədəniyyət və Turizm Nazirliyi Mətbuat və Kitabxanalar Departamentinin həyata keçirdiyi "TEDA" layihəsi (Türkiyə mədəniyyət, incəsənət və ədəbiyyat əsərlərinin xaricə çıxmasına dəstək) çərçivəsində Azərbaycan dilinə tərcümə olunub.

Türkiyə səfirliyinin mədəniyyət və turizm üzrə attaşesi İlker Özkan kitabları "Azərbaycan" pavilyonuna təqdim edərək deyib: "Azərbaycan və Türkiyə qardaş ölkələrdir. Biz böyük heyranlıqla pavilyonla tanış olduq. Fəxr edirik ki, türkiyəli müəlliflərin məşhur kitablarını "Azərbaycan" pavilyonuna təqdim etmək fürsətimiz var".

Pavilyonun direktoru Səadət Qədirova Azərbaycan və Türkiyə arasında qarşılıqlı münasibətlərdən danışaraq qardaş ölkənin səfirliyinin bu addımını yüksək dəyərləndirib: "Türkiyə səfirliyi tanınmış türkiyəli yazıçıların Azərbaycan dilinə tərcümə olunmuş kitablarını bizə hədiyyə etdi. Belə aksiya, sözsüz ki, faydalıdır. Qonaqlarımızın "Azərbaycan" pavilyonuna necə valeh olmalarını görmək çox xoş idi. Pavilyonun XTNS-nin əsl incisinə çevrilməsindən ötrü əlindən gələni edən Heydər Əliyev Fonduna bir daha təşəkkürümü bildirirəm. Türkiyə Azərbaycanın əsas müttəfiqidir və biz qardaş ölkənin dəstəyini yüksək dəyərləndiririk".

Qeyd edək ki, Türkiyə səfirliyinin "Azərbaycan" pavilyonuna hədiyyə etdiyi nəşrlər arasında türk mədəni irsi, folklor nümunələri ilə bağlı Azərbaycan dilinə çevirilən kitablar da var.




Türkiyə Mədəniyyət və Turizm Nazirliyi Mətbuat və Kitabxanalar Departamentinin "TEDA" layihəsi bir çox ölkələrdə həyata keçirilir. Bu layihə çərçivəsində Türkiyə ədəbiyyatının müxtəlif dillərə tərcüməsi işində ayrı-ayrı ölkələrdəki mütəxəssislərə maliyyə dəstəyi göstərilir.

# "Yeni adlar"da qanun və tar gecəsi





Mədəniyyət Nazirliyi tərəfindən bu ilin mart ayından həyata keçirilən "Yeni adlar" musiqi layihəsi davam edir. İstedadlı gənclər böyük səhnələrdə ölkəmizin aparıcı kollektivlərinin müşayiətində öz məharətlərini göstərirlər.

Dekabrın 20-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında "Yeni adlar" layihəsinin növbəti konserti keçirildi.

Gecədə Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrinin (bədii rəhbər və baş dirijor – Xalq artisti Ağaverdi Paşayev) müşayiəti ilə gənc musiqiçilər – respublika və beynəlxalq müsabiqələr laureatları Aişə Əmrahova (qanun) və Hüseyn Quliyev (tar) maraqlı proqramla çıxış etdilər.

Orkestr tərəfindən Fikrət Əmirovun "Kürd ovşarı" simfonik muğamından fraqment və Niyazinin "Qaytağı" əsəri böyük şövqlə təqdim edildi.

Konsertdə Aişə Əmrahovanın ifasında H.Xanməmmədovun "Tar və simfonik orkestr üçün 2 nömrəli konsert"i, Hüseyn Quliyevin təqdimatında isə yenə də H.Xanməmmədovun "Kamança və simfonik orkestr üçün konsert"i alqışlarla qarşılandı. İstedadlı gənclər orkestrin müşayiəti ilə hər iki əsəri həm peşəkarlıq, həm də sevgi ilə səsləndirdilər.

***

Aişə Əmrahova 1994-cü ildə Bakı şəhərində anadan olub. 2009-cu ildə Rafiq Babayev adına 25 nömrəli onbirillik Musiqi məktəbini qanun sinfi üzrə bitirərək elə həmin il Azərbaycan Milli Konservatoriyası (AMK) nəzdində Musiqi Kollecinə daxil olub. 2013-cü ildə kolleci fərqlənmə diplomu ilə bitirərək konservatoriyada təhsilini davam etdirib. 2017-ci ildə AMK-nı da fərqlənmə diplomu ilə başa vurub. Sonra Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində magistr təhsili alıb.

Aişə Əmrahova 2008-ci ildə Xalq çalğı alətləri üzrə Respublika müsabiqəsində I, 2010-cu ildə "Nazim Əliverdibəyov adına Gənc ifaçıların V Ümumşəhər müsabiqəsi"ndə II, 2011-ci ildə dövlət müstəqilliyimizin bərpasının 20-ci ildönümünə həsr olunmuş "Milli musiqi alətləri ifaçılarının Respublika festivalı"nda və bir il sonra Fikrət Əmirovun anadan olmasının 90 illik yubileyinə həsr olunmuş orta ixtisas musiqi məktəbləri arasında gənc ifaçıların Respublika müsabiqəsində diplomlara layiq görülüb. O, 2013-cü ildə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi münasibətilə ümumtəhsil və orta ixtisas təhsil müəssisələrinin şagird və tələbələri arasında gənc musiqi ifaçılarının müsabiqəsində II yerə layiq görülüb. 2015-ci ildə IV Respublika Muğam müsabiqəsində diplomla təltif olunub.

İfaçısı bu il Elm və Təhsil Nazirliyi və AMK-nın birgə təşkilatçılığı ilə "Şuşa İli" çərçivəsində keçirilən Qanun festivalında təşəkkürnamə ilə təltif edilib.

***

Hüseyn Quliyev 1999-cu ildə Bakı şəhərində anadan olub. 2011-ci ildə 27 saylı Musiqi məktəbinin tar ixtisası sinfinə daxil olub. 2015-ci ildən təhsilini Bülbül adına Orta İxtisas Musiqi Məktəbində davam etdirib. 2018-2022-ci illərdə isə AMK-nın İfaçılıq fakültəsində tar ixtisası üzrə təhsil alıb. Gənc ifaçı AMK-da təhsil aldığı illərdə bir sıra müsabiqələrdə iştirak edərək nailiyyətlər qazanıb. 2020-ci ildə Moskvada keçirilən "Daha çoxunu edə bilərsən" adlı beynəlxalq müsabiqədə 1-ci dərəcəli diploma, Krasnodar "İstedadların sahilləri" adlı beynəlxalq müsabiqədə Qran-pri mükafatına, Sankt-Peterburqda "Yaşa! Yarat! Arzula!" adlı beynəlxalq müsabiqədə I yerə layiq görülüb. O, həmçinin Kazan şəhərində keçirilən "Lider – 2020" adlı beynəlxalq müsabiqədə I, Azərbaycan-Özbəkistan arasında xalq simli musiqi alətləri ifaçılarının beynəlxalq müsabiqəsində II, Polşanın Varşava şəhərində "Mədəniyyət karvanı" müsabiqəsində Qran-pri mükafatını əldə edib.

Hüseyn Quliyev görkəmli müğənni Bülbülün 125 illik yubileyinə həsr olunmuş və "Şuşa İli" çərçivəsində reallaşan "Milli musiqi ifaçılarının Respublika müsabiqəsində II yerə layiq görülüb.

**Nurəddin**

# "Əzilsəm də, susmaram!" – istiqlal şairinin yubileyi qeyd olunub

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının təşkilatçılığı ilə Bakı şəhəri Y.Kovalyov adına 229 nömrəli tam orta məktəbdə "Açıq dərs – açıq fikir" layihəsi çərçivəsində "Əzilsəm də, susmaram!" adlı tədbir keçirilib.

Böyük şair və ictimai xadim Əhməd Cavadın 130 illiyinə həsr olunan tədbirdə əvvəlcə məktəbin həyətində şəhidlərin xatirə lövhəsinin qarşısına gül qoyulub və Vətən oğullarının xatirəsi yad olunub.



Sonra tədbir məktəbin akt zalında davam edib. 33 nömrəli Uşaq musiqi məktəbi xor kollektivinin ifasında Dövlət himni səsləndirilib.

Tədbirdə ədibin nəvəsi Almaz Axundzadə, nəticəsi Cavad Axundzadə, Mədəniyyət Nazirliyinin nümayəndələri İslam Hüseynov, Kamran Musayev, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini Hüseyn Əsgərzadə, AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun elm katibi Aygün Bağırlı, institutun baş elmi işçisi, filologiya üzrə elmlər doktoru Lütviyyə Əsgərzadə və digər qonaqlar iştirak ediblər.

Şagirdlərin təqdimatında istiqlal şairinin həyat və yaradıcılığını özündə ehtiva edən kompozisiyalar təqdim olunub və bilik yarışı keçirilib. Bilik yarışmasından sonra çıxış edən qonaqlar Əhməd Cavadın məşəqqətli ömür yolu və yaradıcılığı haqqında geniş məlumat veriblər.

Sonda bilik yarışının qaliblərinə diplom və kitablar verilib. I yerin qalibi Əli Mirzəyevə Əhməd Cavadın əksi olan kiçikölçülü xalça hədiyyə edilib.

Qeyd edək ki, kompozisiya və bilik yarışmasının iştirakçıları məktəbin rus bölməsinin yuxarı sinif şagirdləri olub.

# Məşhur rəqqas Böyükağa Məmmədovun yubileyi keçirilib

Bakı Xoreoqrafiya Akademiyasında (BXA) Milli və müasir rəqs kafedrasının təşkilatçılığı ilə Xalq artisti, Əməkdar müəllim, görkəmli baletmeyster və rəqqas Böyükağa Məmmədovun (1927-2018) 95 illik yubileyi münasibətilə tədbir keçirilib.



Tədbiri Xalq artisti Cəmilə Bayramova açaraq böyük sənət fədaisi və özünə mənəvi müəllim saydığı Böyükağa Məmmədovun həyat və fəaliyyəti barədə məlumat verib.

Sonra B.Məmmədovun irsini yaşadan rəqs sənətinin tanınmış nümayəndələri, ustadın ailə üzvləri onun haqqında unudulmaz xatirələrini bölüşüblər. Əməkdar incəsənət xadimi, professor Rafiq Sadıxov, Əməkdar artistlər Elçin Allahverdov, Aliyə Ramazanova, Zemfira Camalova, Xalq artistləri Təranə Muradova, Tamilla Eldarova və başqaları sənətkarın yaradıcılıq fəaliyyəti barədə çıxış ediblər.

Qeyd olunub ki, ustadın yaradıcısı olduğu "Cücələrim" uşaq rəqs ansamblında yetişdirdiyi davamçıları hazırda dünya səhnələrində Azərbaycanı layiqincə təmsil edirlər. Azərbaycan rəqslərini Fransa, İsveçrə, Əfqanıstan, Polşa, Almaniya, ümumilikdə 100-dən çox ölkədə layiqincə təmsil edən B.Məmmədovun quruluş verdiyi rəqslərin sırasında "Naz eləmə" və "Çoban" rəqsi ilə yanaşı, ifa etdiyi müxtəlif rəqs nömrələri bu gün Azərbaycan Televiziyasının fondunda qorunub saxlanılır.

Tədbirdə bakalavr pilləsinin III kurs tələbəsi Xəyal Pənahov "Xançobanı" və II kurs tələbələri Ramin Hüseynovla Nigar Rzayeva "Naz eləmə" rəqslərini nümayiş etdiriblər. Sonda B.Məmmədovun həyat və yaradıcılıq yolunu əks etdirən videoçarx nümayiş olunub.

# Fikrət Əmirovun 100 illiyi münasibətilə BXA-da konsert



Fikrət Əmirovun 100 illik yubileyi münasibətilə dekabrın 21-də Bakı Xoreoqrafiya Akademiyasında konsert keçirilib. Əvvəlcə tədbirin aparıcısı, BXA-nın Musiqi sənəti kafedrasının müəllimi Səbinə Əliyeva videoslaydlarla dahi bəstəkarın həyat və yaradıcılığı haqqında ətraflı məlumat verib.

Konsert proqramı bəstəkarın "Min bir gecə" baletindən "Nuridənin monoloqu" (bakalavr səviyyəsinin xoreoqrafiya sənəti ixtisası üzrə I kurs tələbəsi Səbinə Məmmədova) ilə başlayıb.

Sonra konsert BXA-nın tam orta, orta ixtisas təhsil pilləsi və bakalavr səviyyəsinin tələbə-müəllim, konsertmeyster heyətinin çıxışları ilə davam edib. Fikrət Əmirovun "Azərbaycan xalq mahnıları" əsasında 2 pyes, "Ekspromt" №1 C dur, "Ekspromt" №2 B dur, "Laylay", "Kor ərəbin mahnısı", "Sevil" operasından fraqmentlər, "Mən səni araram", "Min bir gecə" baletindən "Oxatanların rəqsi", "Şəhrizadın bayramı" və s. xoreoqrafik nümunələr təqdim olunub.

Konsertin təşkilatçıları BXA-nın orta ixtisas təhsil pilləsinin direktoru Tahir Eynullayev, İncəsənət fakültəsinin dekanı Sənan Hüseynli, Musiqi sənəti kafedrasının müdiri Əhsən Əhmədovdur. Konsertin musiqi tərtibatı BXA-nın baş müəllimi Lalə Hüseynliyə məxsusdur.

# Ankarada Natəvanın 190 illiyinə həsr olunmuş tədbir

Ankarada fəaliyyət göstərən Türk Dünyası Mədəniyyət Mərkəzində Xurşidbanu Natəvanın 190 illiyinə həsr olunmuş tədbir keçirilib. Tədbir "Azaflı" Sosial Yardım və Mədəniyyət Dərnəyinin təşkilatçılığı, Azərbaycan Mədəniyyət Nazirliyi və Azərbaycan Diasporuna Dəstək Fondunun dəstəyi ilə gerçəkləşib.

Dərnəyin sədri Arzuman Azaflı Xan qızı Natəvanın həyat və fəaliyyətindən danışaraq vurğulayıb ki, qədirbilən Azərbaycan xalqı xanım şairimizin şəxsiyyətinə hər zaman ehtiram göstərib.



Azərbaycan Diasporuna Dəstək Fondunun icraçı direktoru Əkrəm Abdullayev, Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının (TADEF) sədr müavini Pərviz Məmmədzadə, Türkiyədə yaradıcı və pedaqoji fəaliyyət göstərən Azərbaycanın Əməkdar rəssamı Teymur Rzayev və başqaları çıxışlarında Natəvanın yaradıcılığından bəhs ediblər.

Əməkdar artist, bəstəkar və pianoçu Turan Manafzadənin konsert proqramı hərarətli alqışlarla qarşılanıb.

## “Doğma diyar – Azərbaycan” müsabiqəsinin yekun sərgiləri

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Təhsil Nazirliyi, “Azərbaycan Televiziya və Radio Verilişləri” QSC, Xətai Rayon İcra Hakimiyyəti və Azərbaycan Rəssamlar İttifaqının dəstəyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə keçirilən “Doğma diyar – Azərbaycan” adlı ənənəvi respublika uşaq rəsm müsabiqəsinin yekun sərgiləri başa çatıb.



Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş müsabiqəyə Azərbaycanı tərənnüm edən, eləcə də qəhrəmanlıq, vətənpərvərlik mövzulu əl işləri qəbul olunub.

Müsabiqəyə ölkəmizin müxtəlif guşələrindən 1500-dən çox uşaq, yeniyetmə və gənc 2000-dən artıq əsər təqdim edib. Onlardan 800-ə yaxın əsər sərgilənmək üçün seçilib.

Əsəri sərgilənən iştirakçılar sertifikatlar, fəal tədris müəssisələri təşəkkürnamə ilə təltif olunublar.

Sərgilərdən seçilmiş 10 ən yaxşı əsərin müəllifinin qrup sərgisi və bir tədris müəssisəsinin kollektiv sərgisinin keçirilməsi nəzərdə tutulub.

# Mədəniyyət Nazirliyinin mətbuat orqanlarının fəaliyyəti müzakirə olunub

Dekabrın 21-də mədəniyyət naziri Anar Kərimov nazirliyin mətbuat orqanları “Mədəniyyət/Culture” jurnalı və “Mədəniyyət” qəzetinin kollektivləri ilə görüşüb.



Müasir dövrdə mətbuat və medianın qarşısında mühüm vəzifələrin dayandığını bildirən Anar Kərimov informasiyanın dəqiq və operativ şəkildə ictimaiyyətə çatdırılmasının vacibliyini qeyd edib.

Yeni informasiya texnologiyaları, geniş əhatə dairəsi olan elektron media, sosial media kimi imkanlarla yanaşı, ənənəvi çap mətbuatının əhəmiyyətini qeyd edən Anar Kərimov ölkəmizin mədəniyyət salnaməsinin, müasir mədəni proseslərin gələcək nəsillərə çatdırılmasında onun bir mənbə rolunu oynayacağını deyib. Bildirilib ki, müasir oxucu informasiyanın maksimum qısa və lakonik olmasını istəyir. Buna görə də hər iki nəşr çap variantlarını qoruyub saxlamaqla yanaşı, elektron versiyalarını təkmilləşdirməli və məlumatların çatdırılmasının daha optimal yollarını tapmalıdır.

Bildirilib ki, nazirliyin mətbuat orqanları mədəniyyət sahəsində həyata keçirilən işləri, bu sahədə yenilikləri vaxtında oxuculara çatdırmağa çalışmalı, uğurlarla bərabər, problemləri də diqqətdə saxlamalıdır.

Hazırda dövlət tərəfindən işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma işləri, mədəni quruculuq barədə danışan Anar Kərimov bu prosesin hər iki mətbuat orqanında mütəmadi işıqlandırılmasının zəruriliyini vurğulayıb.

Qəzet və jurnalın yayımı, hədəf auditoriyası barədə danışan Anar Kərimov deyib ki, ölkəmizin mədəniyyət ictimaiyyəti ilə yanaşı, elm, təhsil və digər sahələrdə çalışanların, xüsusilə də tələbə və gənclərin bu nəşrlərə əlçatanlığının təmin edilməsi faydalı olar. Bu məqsədlə hər iki nəşrin yayım siyasətinin yenidən nəzərdən keçirilməsi ilə bağlı tövsiyələri verilib.

Görüşdə eyni zamanda informasiya siyasətinin reallaşdırılmasında sosial medianın imkanlarından da maksimum istifadənin günün tələbi olduğu vurğulanıb. Hər iki nəşrin elektron versiyalarında multimedia imkanlarının daha da artırılması ilə bağlı müzakirə aparılıb.

“Mədəniyyət/Culture” jurnalının baş redaktoru Əməkdar jurnalist Zöhrə Əliyeva, “Mədəniyyət” qəzetinin baş redaktoru Vüqar Əliyev nəşrlərin fəaliyyəti, həyata keçirilən layihələr haqqında məlumat veriblər. Gələcək planlar, yayım işi barədə söz açılıb, təkliflər səsləndirilib.

## Bərdədə Xan qızının 190 illiyi



Bərdə RMİ Tərtər Rayon Mədəniyyət Mərkəzində Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Xurşidbanu Natəvanın 190 illiyinə həsr olunmuş “Tək inci Xan qızı” adlı tədbir keçirilib.

Tədbirdə Xan qızının həyat və yaradıcılığından, ədəbiyyat və mədəniyyətimizin inkişafında verdiyi töhfələrdən, parlaq istedada və qabaqcıl ideallara malik olan şəxsiyyət olmasından bəhs edilib.

Bədii hissədə Tərtər Rayon Mədəniyyət Mərkəzinin hazırladığı “Tək inci Xan qızı” adlı musiqili tamaşa təqdim olunub. Səhnə işi izləyicilər tərəfindən maraqla qarşılanıb.

## Üç qardaşın “Qəhrəmanlıq salnaməsi”



Masallı RMİ Cəlilabad Rayon Heydər Əliyev Mərkəzində Vətən müharibəsi şəhidi Bayram Babaşovun xatirəsinə həsr olunan tamaşa nümayiş etdirilib.

Masallı və Cəlilabad Xalq teatrları aktyorlarının iştirakı ilə hazırlanan “Qəhrəmanlıq salnaməsi” adlı tamaşa izləyicilər tərəfindən maraqla qarşılanıb. Səhnə işi Vətən müharibəsində iştirak edən şəhid Bayram, qazilər Nurlan və Vüqar Babaşov qardaşlarının keçdiyi döyüş yoluna işıq salır.

## Şair-aşıq Allahverdi Qəmkeşin xatirə gecəsi

Gəncə Regional Mədəniyyət İdarəsi (RMİ) və Azərbaycan Aşıqlar Birliyinin (AAB) dəstəyi, birliyin Gəncəbasar bölməsi və Aşıq Şəmşir adına Kəlbəcər rayon Mədəniyyət evinin təşkilatçılığı ilə ustad şair-aşıq, Əməkdar mədəniyyət işçisi Allahverdi Qəmkeşin 90 illik yubileyinə həsr olunan xatirə gecəsi keçirilib.



Kəlbəcər Rayon Mədəniyyət Sarayında təşkil olunan tədbirdə AAB-nin sədri Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı, Gəncə RMİ-nin rəisi Vasif Cənnətov, aşığın ailə üzvləri və digər qonaqlar iştirak ediblər.

Əvvəlcə qonaqlar Mədəniyyət Sarayında A.Qəmkeşə həsr olunan fotosərgiyə baxıblar. Sonra sənətkarın ömür yolundan bəhs edən videoçarx nümayiş olunub.

AAB-nin sədri Məhərrəm Qasımlı və folklorşünas, Əməkdar mədəniyyət işçisi Elxan Məmmədli çıxış edərək sənətkarın yaradıcılığından söz açıblar.

Aşıqlardan Əməkdar mədəniyyət işçisi Əhliman Allahverdiyev, Elbrus Hüseynov, Şöhrət Kərimov, Əli Zeynalabdinov, İlqar Əhmədov, Əfqan Məmmədov, Yaşar Məhərrəmov, Qənbər Allahverdiyev, Qalib Ramazanov, ustadın şagirdi Nizami Şirinov, Taleh Abdullayev, İbadət Mehdiyev və Sevindik Quliyev müxtəlif aşıq havaları üstündə Allahverdi Qəmkeşin öz sözlərini və repertuarından seçmə havaları səsləndiriblər. Onları balabanda Əməkdar mədəniyyət işçisi İbadət Allahverdiyev müşayiət edib.

Ustad aşığın ailəsi adından oğlu Ramiz Qəmkeş və qızı Zəhra Şirinova tədbirin təşkilatçılarına və bütün iştirakçılara təşəkkürlərini bildiriblər.

Sonda aşıqlara Gəncə RMİ və AAB-nin təşəkkürnamələri təqdim olunub.

Mədəniyyət evində ustad aşıq Allahverdi Qəmkeşin yaradıcılığından bəhs edən fotosərgi də nümayiş olunub.

**Hazırladı: N.Məmmədli**

# Bölgələrdə “Şuşa İli” tədbirləri davam edir



Kürdəmir Regional Mədəniyyət İdarəsinin (RMİ) təşkilatçılığı ilə Kürdəmir Rayon Mərkəzi Kitabxanasında F.Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşı Zahirə Sabirin Qarabağ tarixinə və “Şuşa İli”nə həsr olunmuş “Əvvəl zaman içində” kitabının təqdimatı keçirilib. İdarənin rəisi Faiq Xudanlı çıxış edərək kitabın uşaqlar üçün gözəl bir töhfə olduğunu qeyd edib.

***

Sabirabad RMİ Şirvan Dövlət Rəsm Qalereyası, şəhər İcra Hakimiyyəti, Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə “Şuşa İli” ilə bağlı rəsm sərgisi təşkil olunub. Sərgidə Şirvan, Salyan, Hacıqabul məktəbliləri və sağlamlıq imkanları məhdud şəxslərin Şuşanın təbiətini, tarixi abidələrini, gözəlliklərini əks etdirən rəsmləri yer alıb.

***

Xaçmaz RMİ-nin təşkilatçılığı ilə Qusar Rayon Heydər Əliyev Mərkəzində mədəniyyət işçiləri arasında “Şuşa İli”nə həsr olunmuş regional intellektual yarış təşkil edilib. İdarənin rəisi Vüsal Hüseynov bildirib ki, yarışmanın məqsədi mədəniyyət fəaliyyətinin təbliği, mədəni-kütləvi tədbirlərin genişləndirilməsidir. Üç




mərhələdən ibarət yarışın sonunda Quba rayonunu təmsil edən komanda ən yüksək bal toplayaraq birinci yerə layiq görülüb. Yarışdan sonra təşkil olunan konsert proqramında incəsənət ustaları, rəqs kollektivləri çıxış ediblər.

***



Masallı RMİ Masallı Rayon Mərkəzi Kitabxanasında “Azərbaycanın musiqi beşiyi – Şuşa” adlı tədbir keçirilib. Çıxış edənlər mədəniyyət paytaxtımızın ədəbiyyatımıza, incəsənətimizə, tariximizə, siyasətimizə bəxş etdiyi görkəmli simalardan danışıblar.

***

Gəncə RMİ və Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğunun dəstəyi, şəhər Nizami Gəncəvi Muzeyinin təşkilatçılığı ilə “Nizami Gəncəvi İli”ndən “Şuşa İli”nə” adlı tədbir keçirilib. İdarənin rəisi Vasif Cənnətovun da iştirak etdiyi tədbirdə əvvəlcə qonaqlar Nizaminin məqbərəsini ziyarət ediblər. Sonra musiqi nömrələri təqdim edilib, dahi şair haqqında videoçarx nümayiş olunub.

# Yaddaşlardan silinməyən sənət fədaisi

Bölgələrdəki mədəniyyət müəssisələrində ustad tarzən, Xalq artisti Əhməd Bakıxanovun (1892-1973) anadan olmasının 130 illik yubileyi münasibətilə bir sıra tədbirlər keçirilib.

Şəki RMİ Oğuz Rayon Mərkəzi Kitabxanasında təşkil olunan tədbirdə Ə.Bakıxanovun sənət yolundan bəhs edilib.

Şəmkir RMİ Daşkəsən Rayon Mədəniyyət Mərkəzi və rayon Uşaq incəsənət məktəbinin birgə təşkilatçılığı ilə Ə.Bakıxanovun 130 illik yubileyi ilə bağlı konsert proqramı təqdim edilib.

Gəncə RMİ Samux rayon Sərkar kənd Uşaq musiqi məktəbində ustad tarzənin yubileyinə həsr edilmiş tədbirdə müəllim və şagirdlər musiqi nömrələri ilə çıxış ediblər.

Goranboy rayon Düzqışlaq kənd Uşaq musiqi məktəbində şagirdlərin və müəllimlərin ifasında Ə.Bakıxanovun tar üçün işləmələri və Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət konsert proqramı təqdim edilib.

Xaçmaz RMİ Quba rayon MKS-nin Mərkəzi Kitabxanasında “Muğamlarımızın mahir ifaçısı” adlı tədbir keçirilib.



Ağcabədi RMİ Əli Quliyev adına Laçın şəhər 1 nömrəli Uşaq musiqi məktəbində Əhməd Bakıxanovun yubileyinə həsr olunmuş ədəbi-bədii kompozisiya təşkil edilib.

Biləsuvar RMİ Biləsuvar rayon Orxan Əkbərov adına Uşaq incəsənət məktəbindəki tədbirdə Ə.Bakıxanovun musiqi mədəniyyətimizin inkişafına töhfələrindən danışılıb.

Masallı RMİ Yardımlı Rayon Heydər Əliyev Mərkəzində keçirilən “Yaddaşlardan silinməyən sənət fədaisi” adlı tədbir də Ə.Bakıxanova həsr olunub.



Sabirabad RMİ Sabirabad şəhər Ü.Hacıbəyli adına Uşaq musiqi məktəbində “Muğamları yaşadan sənətkar” adlı tədbir keçirilib.

Şirvan şəhər Uşaq musiqi məktəbinin Heydər Əliyev Mərkəzi ilə birgə keçirdiyi tədbirdə müəllim və şagirdlər tərəfindən ustad tarzənin repertuarından muğam və musiqi nömrələri ifa olunub.

Siyəzən Rayon Mərkəzi Kitabxanası, rayon Heydər Əliyev Mərkəzi və Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə “Əhməd Bakıxanov – 130” adlı tədbir təşkil edilib.

## Canını Vətənə fəda edənlər



Xaçmaz RMİ Quba rayon MKS-nin Mərkəzi Kitabxanası Uşaq şöbəsinin təşkilatçılığı ilə Birinci Qarabağ müharibəsi şəhidi, Milli Qəhrəman Əliyar Əliyevin (1957-1992) 65 illiyi ilə əlaqədar “Qəhrəmanlar unudulmur” adlı tədbir keçirilib. Çıxış edənlər Milli Qəhrəmanın həyat və şanlı döyüş yolu haqqında məlumat veriblər. Daha sonra kitabxananın fəal oxucuları Vətənə, şəhidlərə həsr olunmuş şeirlər söyləyiblər.

***

Gəncə RMİ Gəncə şəhər MKS-nin 1 saylı kitabxana filialı 6 saylı məktəbin 9-cu sinif şagirdləri ilə birlikdə Milli Qəhrəman Salatın Əsgərovanın (1961-1991) xatirəsinə həsr olunmuş “Mən şəhid oldum ki, Vətən yaşasın!” başlığı altında tədbir keçirib.

***

Ağstafa RMİ Ağstafa Tarix-Diyarşünaslıq Muzeyi və rayon Hüseyn Arifin Ev-Muzeyinin əməkdaşları tərəfindən Vətən müharibəsi şəhidi Zöhrab Abbasovun şəhadətinin ildönümü münasibətilə xatirəsi anılıb. Mədəniyyət işçiləri şəhidin ailəsini ziyarət ediblər.



E.Hüseynov adına Qazax Rayon Mərkəzi Kitabxanasında Vətən müharibəsi şəhidlərinə həsr olunmuş “Qazax elinin şəhidləri: unutmadıq, unutmarıq!” adlı videoçarx nümayiş etdirilib.

Tovuz rayonundakı Azərbaycan Aşıq Sənəti Dövlət Muzeyinin əməkdaşları şəhid Rahib Quliyevin ailəsinə baş çəkiblər.

## Seyran Səxavətlə görüş




Sumqayıt RMİ-nin dəstəyi ilə Sumqayıt şəhər Poeziya evində “Dostluq” Mədəniyyət evinin layihəsi üzrə tanınmış yazıçı-dramaturq, şair, tərcüməçi Seyran Səxavətlə görüş keçirilib.

Xalq şairi, millət vəkili Sabir Rüstəmxanlı, Əməkdar mədəniyyət işçisi, şair Əşrəf Veysəlli, Əməkdar müəllim, şair Ofelya Babayeva, Sumqayıt RMİ-nin rəisi Rəşad Əliyev və başqaları Seyran Səxavətin əsərlərinin oxucusuna aşıladığı mənəvi keyfiyyətlər barədə söz açıblar.

Seyran Səxavət ədəbiyyatın başlıca vəzifəsinin insan dəyərlərinin yaşamasına xidmətdən ibarət olduğunu xatırladıb, yeni şeirlərini səsləndirib. Tədbir musiqi nömrələri ilə davam etdirilib.

# Estradamızın canlı əfsanəsi 70 illiyində Bakı səhnəsində

## Xalq artisti Sərxan Sərxanın yubiley konserti keçirildi

Bu il klassik estrada musiqimizin parlaq nümayəndələrindən biri, Xalq artisti, müğənni, bəstəkar Sərxan Sərxanın 70 illiyidir.

Rusiyada yaşayan görkəmli müğənni yubiley ilində doğma şəhərində konsert proqramı ilə onun sənətinin heyranlarının qarşısına çıxdı.

Dekabrın 21-də Beynəlxalq Muğam Mərkəzində (BMM) gerçəkləşən gecədə mərkəzin direktoru Xalq artisti Murad Hüseynov səhnəyə çıxaraq tamaşaçıları salamladı. Sərxan Sərxanı klassik estrada sənətimizin canlı korifeyi adlandıran direktor müğənninin növbəti konsertinin BMM səhnəsində reallaşmasından məmnunluğunu bildirdi. Sənətkara yubileyi münasibətilə xoş diləklərini çatdıran Murad Hüseynov onu səhnəyə dəvət etdi.



Musiqisevərlərin gur alqışları altında səhnəyə gələn müğənni sevilən lirik kompozisiyaları ilə yanaşı, repertuarındakı retro və müəllif mahnılarını, eləcə də Azərbaycanın korifey sənətkarlarının əsərlərindən seçmələri ifa etdi.

Sənətkar ilk olaraq "Salam, Bakı şəhərim!" mahnısı ilə tamaşaçıları salamladı. Xalq şairləri Nəbi Xəzrinin şeirinə "Nə dedim?", Nəriman Həsənzadənin sözlərinə "Kinoda" və şair Tofiq Bayramın sözlərinə bəstələdiyi "Ay gecikən məhəbbətim" mahnıları isə zala xüsusi ovqat bəxş etdi.

Tək özü və illərdir ona dost olan gitarası ilə tamaşaçılarla səmimi ünsiyyət quran Xalq artisti hər bir ifası və mahnısı haqqında məlumat verir, həm də öz təəssüratlarını bölüşürdü: "Hər il dekabr ayında ənənəvi olaraq Bakıda konsert verirdim. Üç ildir ki, pandemiya və Vətən müharibəsinə görə bu ənənə təxirə salındı. Mən səhnədən enerji alıram, cavanlaşıram".

Müğənni özünün ən məşhur mahnılarından "Ay gecikən məhəbbətim" haqqında məlumat verdi: "Artıq bu mahnının 40 yaşı tamam olur. "Ay gecikən məhəbbətim" mənim Azərbaycan dilində oxuduğum ilk mahnıdır. O vaxta qədər bütün mahnılarım rus dilində idi. Bibim oğlu Tofiq Bayramın bu şeirini gətirdi, mən də həmin şeirə mahnı bəstələdim. 40 ildir ki, bu mahnını oxuyuram. Hələ də sevilir, dinlənilir. Bu gün gənclər tərəfindən də ifa edilir".

Şən, şux ifası, bir-birindən maraqlı retro hit və yeni mahnıları özünəməxsus tərzdə təqdim edən Sərxan Sərxan həmin gün sanki bütün zala səhnə üçün necə darıxdığını çatdırmaq istəyirdi. Təmiz, peşəkar ifa, səsin duruluğu, maraqlı improvizələrlə 70 yaşlı müğənni səhnəyə meydan oxumağı bacardı.

Qeyd edək ki, Sərxan Sərxan 18 iyun 1952-ci ildə Bakı şəhərində anadan olub. Moskva Konservatoriyası nəzdində musiqi məktəbinin gitara sinfini, hərbi xidməti başa vurduqdan sonra isə Qnesinlər adına Musiqi məktəbini vokal üzrə bitirib. Moskva və Azərbaycan filarmoniyalarında çalışıb. Bir neçə filmə çəkilib. Həm Azərbaycan, həm də rus dillərində mahnılar ifa edən müğənni geniş tamaşaçı kütləsinin rəğbətini qazanıb.

Estrada müğənnisi 1987-ci ildə "Əməkdar artist", 2018-ci ildə "Xalq artisti" fəxri adları ilə təltif edilib.

## "Bu sevgini tamaşaçıya sənətlə geri qaytarmaq lazımdır"

Sərxan Sərxanın Beynəlxalq Muğam Mərkəzindəki yubiley konsertindən əvvəl sənətkardan "Mədəniyyət" qəzeti üçün qısa müsahibə almaq imkanımız oldu.

*– Sizi yenidən Bakıda görməyə şadıq. Üçillik fasilədən sonra yenidən səhnədə olacaqsınız...*

– Mən də çox sevinirəm ki, artıq bu axşam Bakıda tamaşaçılarla görüşəcəyəm. Bəli, müəyyən səbəblərdən üç ildir görüşə bilmirik. Nəhayət, uzun fasilədən sonra konsertim baş tutdu. Bunu həm də bir vətəndaşlıq borcum hesab edirəm.

*– Doğma şəhər üçün darıxmışdınız?*

– Bakı üçün mən həmişə darıxıram. Bakını ona görə çox sevirəm ki, burada anadan olmuşam, uşaqlığım bu şəhərdə keçib. Bəziləri sual verir ki, nə vaxt qayıdacaqsınız. Mən Bakıdan getdiyimi hesab etmirəm. Ona görə ki, ürəyimin yarısı həmişə buradadır. O vaxt ittifaq idi. Getdim təhsil almağa və fəaliyyətim də orada davam etdi. Bu gün vaxtımın çoxu Bakıda keçir.

*– Zalda bir dənə də boş yer belə yoxdur. Hətta insanlar bu dəqiqə mərkəzin qarşısında toplaşıblar. Bu qədər sevilməyinizin sirrini nədə görürsünüz?*

– Bunun sirri uzun illər sənətdə çalışmaq, səmimi olmaq. Gərək heç vaxt nə özünü, nə də başqalarını aldatmayasan. Ən əsas öz sənətinə inam olmalıdır. Əgər sən sənətinə, ifa etdiyin mahnılara inanırsansa, onda tamaşaçı sənə inanacaq. Pula görə, vəzifəyə görə deyil, səmimiyyətlə oxusan, mahnın tamaşaçının ürəyinə yol tapacaq. Uzun illər sən əziyyət çəkirsən və populyarlığa fikir vermirsən. Mən uzun illər populyarlığa fikir vermədim. Həmişə populyarlığı mənə verilən kredit kimi qəbul etmişəm. Bu krediti gərək işləyim geri qaytarım. Yəni bu sevgini tamaşaçıya sənətlə geri qaytarmaq lazımdır.

*– Bugünkü konsertdə yeni mahnılar olacaqmı?*

– Həm ötən illərdə oxuduğum, həm də yeni mahnılar olacaq.



*– Belə cavan, şux qalmağınızın xüsusi bir sirri varmı?*

– Səmimilik, ürək açıqlığı. Fiziki tərəfləri də var. Amma ruhi tərəfdən də gərək təmiz olasan. İdmanla məşğul olasan, yeməyinə fikir verəsən, nəfsini saxlayasan. Hər birimizin bir inamı var. İnsafın varsa, pislik etmirsənsə, heç kimi aldatmırsansa, bunun özü inamdır, imandır.

*– Klassik estrada ilə bağlı fikirləriniz maraqlı olar.*

– Mən özümü klassik estradanın axırıncı ifaçılarından hesab edirəm. Zamanın öz tələbləri var. İndi heç kimi, yəni gəncləri qınamaq olmaz. Sənətin qiyməti çox amillərdən asılıdır. Mətni gərək şair yazsın, musiqini bəstəkar bəstələsin. Yüksək səviyyəli əsər ifaçıdan da peşəkarlıq tələb edir. İndi təəssüf ki, bir çox mahnıların mətni də, musiqisi də bəsit olduğu üçün səviyyəsi elə də yüksək olmur. Bir nüans da var. İncəsənət kütləvi ola bilməz. Operaya, klassik musiqiyə də hamı qulaq asmır. Biz deyə bilmərik ki, bu, pis musiqidir. Onu gərək başa düşsünlər. Klassik estrada da belədir. Bu janrları başa düşmək üçün gərək televiziyalar və sosial platformalar bu musiqiləri təbliğ etsin. Hər janrın öz yeri var.

*– Sərxan müəllim, artıq bizə konsertin başlamasını işarə edirlər. Sizə uğurlar arzulayırıq.*

– Sağ olun. Göstərdiyiniz diqqətə görə təşəkkür edirəm.

**Lalə**

# Ömər Eldarova Mədəniyyət Nazirliyinin "Şuşa-270" döş nişanı təqdim edilib

Dekabrın 21-də görkəmli heykəltəraş, Xalq rəssamı, Azərbaycan Rəssamlıq Akademiyasının rektoru, akademik Ömər Eldarovun 95 yaşı tamam oldu. Xəbər verdiyimiz kimi, sənətkar yubileyi ərəfəsində Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan mədəniyyətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilib.



Ömər Eldarov, həmçinin Mədəniyyət Nazirliyi tərəfindən bu il təsis edilən "Şuşa-270" döş nişanı ilə təltif olunub.

Dekabrın 21-də mədəniyyət naziri Anar Kərimov yubilyarla görüşüb. Anar Kərimov Ömər Eldarovu 95 illik yubileyi münasibətilə təbrik edib, onun Azərbaycan mədəniyyətinə, təsviri sənətinə verdiyi töhfələri, həmçinin zəngin mədəniyyətimizin təbliğ edilməsində səmərəli fəaliyyətini vurğulayaraq heykəltəraşa ən xoş arzularını çatdırıb.

Qeyd olunub ki, dövlət başçısının 20 dekabr 2022-ci il tarixli sərəncamı ilə Ömər Eldarovun 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif olunması sənətkarın fəaliyyətinə verilən yüksək dəyərdir.

Anar Kərimov Ömər Eldarova möhkəm cansağlığı, yeni yaradıcılıq uğurları arzulayıb və ona Mədəniyyət Nazirliyinin "Şuşa-270" döş nişanını təqdim edib.

Ömər Eldarov göstərilən diqqətə görə təşəkkürünü bildirib.

# Bədii özfəaliyyət kollektivlərinin müsabiqəsinə yekun vurulub

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə oktyabr-noyabr aylarında keçirilmiş Bədii özfəaliyyət kollektivlərinin müsabiqəsinə yekun vurulub.



Müsabiqənin yekun konserti və mükafatlandırma mərasimi Hacıağa Abbasov adına Mədəniyyət Mərkəzində (Sabunçu rayonu Maştağa qəsəbəsi) baş tutub.

Müsabiqənin keçirilməsində əsas məqsəd mədəniyyət müəssisələrinin işinin daha da təkmilləşdirilməsi, özfəaliyyət işinin, mili musiqi və folklor janrının inkişaf etdirilməsidir.

Baş İdarənin şəbəkəsinə daxil olan mədəniyyət evləri və klublarının xalq çalğı alətləri, rəqs kollektivləri, muğam üçlüyü və vokal-estrada üzrə ümumilikdə 30 bədii özfəaliyyət kollektivi müsabiqəyə qatılıb.

Münsiflər heyətinin qiymətləndirmələrinə əsasən, müsabiqənin "Xanəndə", "Vokal estrada", "İnstrumental ifa", "Rəqs – böyüklər", "Rəqs – uşaqlar" və "Rəqs-solo" nominasiyaları üzrə qaliblərinə fəxri fərmanlar və mükafatlar təqdim olunub.

Baş İdarənin rəisi İbrahim Əliyev qalibləri təbrik edib və onlara yeni yaradıcılıq uğurları arzulayıb.

Qaliblərin ifasında konsert proqramı təqdim olunub.

# "Ruhumun təqdimatı – ömür səhifələrim"

## Rəssam Fikrət İbrahimlinin 50 illik yaradıcılıq fəaliyyətinə həsr olunan sərgi

Muzey Mərkəzinin qalereyasında rəssam Fikrət İbrahimlinin yaradıcılığının 50 illiyinə həsr olunan "Ruhumun təqdimatı – ömür səhifələrim" adlı fərdi sərgisi keçirilir. Dekabrın 16-da açılışı olan sərgi Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayevanın təşəbbüsü ilə Mədəniyyət Nazirliyi və Muzey Mərkəzi tərəfindən təşkil olunub.



Sərginin açılışında Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva Fikrət Məmmədlinin sənət dünyasından danışdı, onun yaradıcılığının Azərbaycan rəssamlıq məktəbinin zəngin ənənələri üzərində bərqərar olduğunu dedi: "Fikrət İbrahimlinin yaradıcılığı təsviri sənətimizin yeni möcüzələrindəndir. Qoy bu əsərlər evlərimizi bəzəsin və bu addımımızla sənət insanlarımıza dəstək olaq".

Nizami Gəncəvi adına Daşkənd Dövlət Pedaqoji Universitetinin rektoru Özbəkistan-Azərbaycan Dostluq Cəmiyyətinin rəhbəri professor Abdulqappar Qırğızboyev Azərbaycan və Özbəkistan arasında dostluq əlaqələrindən söz açdı. Rektor Azərbaycanda səfərdə olduğu müddətdə belə bir sərgidə iştirakından məmnunluğunu ifadə edərək rəssama uğurlar arzuladı.

Mədəniyyət Nazirliyi Sərgi və qalereyalar sektorunun müdiri Murad Məmmədov, Daşkənd Dövlət Pedaqoji Universiteti Dünya tarixi kafedrasının professoru, Özbəkistan-Azərbaycan Dostluq Cəmiyyətinin icraçı direktoru Erkin Nuriddinov, Azərbaycan Rəssamlar İttifaqının sədr müavini Xalq rəssamı Ağaəli İbrahimov da çıxış edərək Fikrət İbrahimli əsərlərinin ideya-sənətkarlıq xüsusiyyətlərindən danışdılar.

F.İbrahimli sərginin təşəbbüskarı və təşkilatçılarına, eləcə də qonaqlara təşəkkür etdi.

Neftçala rayonunda dünyaya göz açan F.İbrahimlinin ilk sənət müəllimi həmin rayonda yaxşı tanınan Adil Hacıyev olub. Rəssam ixtisas təhsilini əvvəlcə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda, daha sonra Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində alıb. O, müəllimi, Xalq rəssamı Toğrul Nərimanbəyovu hər zaman böyük minnətdarlıq hissi ilə xatırlayır. T.Nərimanbəyov "Ulduz" jurnalının 1980-ci il, 10-cu nömrəsində xeyir-dua mahiyyətli yazısında tələbəsi F.İbrahimlinin istedadını yüksək qiymətləndirib. Rəssamın əsərləri ölkəmizdə və xaricdə muzey, qalereya və şəxsi kolleksiyalarda saxlanılır.

F.İbrahimlinin yaradıcılığı əsasən rəngkarlıq nümunələrindən ibarətdir. O, süjetli tablo, portret, mənzərə və natürmort janrında yaradılmış bir çox maraqlı əsərlərin müəllifi kimi tanınır. Fırça ustasının işləri arasında İçərişəhər mövzulu əsərlər ayrıca yer tutur. Qədim şəhərin müxtəlif guşələri rəssam təxəyyülü ilə kətanda öz uğurlu bədii həllini tapıb. Rəşadətli Ordumuzun 44 günlük savaşda göstərdiyi misilsiz qəhrəmanlıq da rəssamın yaradıcılığında müvəffəqiyyətlə təcəssüm olunur. F.İbrahimlinin mədəniyyət paytaxtımız Şuşaya həsr olunmuş rəngkarlıq nümunəsi isə ayrıca qeyd olunmağa layiqdir.

Bundan əlavə, Abşeron bağları, üzüm tənəkləri, əncir ağacları, bağ evləri, dəniz mənzərəsi rəssamın palitrasında özünəməxsus duyumla təsvir olunub. Rəssam Azərbaycan nemətlərinin, xüsusən də narların rəsmlərini təsvir etməklə maraqlı natürmort kompozisiyaları yarada bilib. Sənətkarın "Muğam", "İçərişəhər", "Neftçala. Limanda", "Kür qırağında", "Kür çayı", "Fatmayı", "Bağ evi – Novxanı", "Abşeron motivi", "Abşeron günəbaxanları", "Nişan. Rəfiqələr", "Kəndimizin qızları", "Xonça aparırlar", "Gəlin gətirməyə", "Toy", çoxsaylı portret, avtoportret və natürmortları sənətsevərlər tərəfindən maraqla qarşılanır.

Sərgidə F.İbrahimlinin rəngkarlıq və qrafika sahəsində yaratmış olduğu, yaradıcılığının müxtəlif dövrlərinə aid 60-a yaxın əsəri nümayiş olunur. Bir ay müddətində açıq olacaq sərgiyə giriş pulsuzdur.

**L.Azəri**

# Xalq artisti Ramiz Quliyevin 75 illik yubileyi münasibətilə tədbir



Dekabrın 21-də Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə paytaxtdakı S.Rüstəmov adına 13 nömrəli Musiqi məktəbi ustad tarzən, pedaqoq, Dövlət mükafatı laureatı, Xalq artisti Ramiz Quliyevin 75 illik yubileyinə həsr olunmuş tədbir keçirib.

Ü.Hacıbəylli adına Bakı Musiqi Akademiyasında keçirilən tədbirdə Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi İbrahim Əliyev, Xətai Rayon İcra Hakimiyyətinin şöbə müdiri Pənah İmanov, yubilyarın sənət dostları – Xalq artistləri Vamiq Məmmədəliyev, Zamiq Əliyev, Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinin direktoru Nazim Kazımov, musiqi məktəblərinin direktorları, digər qonaqlar, həmçinin şəhid Rövlan Məmmədovun ailəsi, Vətən müharibəsi qaziləri iştirak ediblər.

Əvvəlcə sənətkarın həyat və yaradıcılığından bəhs edən videoçarx nümayiş olunub.

Çıxış edənlər Ramiz Quliyevi yubileyi münasibətilə təbrik edib, sənətkarın musiqi mədəniyyətimizin, tar ifaçılığı sənətinin inkişafındakı xidmətlərindən söz açıblar.

Bildirilib ki, məşhur tarzən Azərbaycan musiqi ifaçılığı sənətində parlaq iz qoyub. Bu gün Azərbaycan xalq musiqisini sevənlər arasında elə bir şəxs tapılmaz ki, tarın virtuoz ifaçısı, milli muğamlarımızın mahir bilicisi olan Ramiz Quliyevin yaradıcılığı ilə tanış olmasın.

Tədbir konsert proqramı ilə davam edib. Konsertdə Xalq artisti, tarzən Elçin Həşimov, Əməkdar artist, kamança ifaçısı Elnur Əhmədov, Səid Rüstəmov adına 13 nömrəli Musiqi məktəbinin şagird, məzun və müəllimləri çıxış ediblər.

Sonda Ramiz Quliyev tədbirin keçirilməsinə və göstərilən diqqətə görə hər kəsə təşəkkürünü bildirib.

№95 (1968)
23 dekabr 2022
www.medeniyyet.az

# Əməkdar incəsənət xadimi, dirijor Kazım Əliverdibəyov dünyasını dəyişib

Azərbaycan mədəniyyətinə ağır itki üz verib. Əməkdar incəsənət xadimi, Prezident təqaüdçüsü, tanınmış dirijor Kazım Əliverdibəyov dekabrın 19-da, 88 yaşında vəfat edib.



Kazım Ağalar oğlu Əliverdibəyov 27 noyabr 1934-cü ildə Bakıda anadan olub. 1954-1959-cu illərdə Azərbaycan Dövlət Konservatoriyasında xor dirijorluğu ixtisası üzrə təhsil alıb. 1958-1960-cı illərdə Azərbaycan Dövlət Musiqili Komediya Teatrında (indiki Akademik Musiqili Teatr) dirijor, 1960-cı ildən 1995-ci ilə qədər müəyyən fasilələrlə Azərbaycan Akademik Dövlət Opera və Balet Teatrında dirijor və baş dirijor vəzifələrində çalışıb.

1996-2005-ci illərdə Türkiyədə, İzmir Konservatoriyasında müəllim kimi fəaliyyət göstərən K.Əliverdibəyov, eyni zamanda tələbələrdən ibarət simfonik orkestrin dirijoru olub. 2006-cı ildə Azərbaycana qayıdan sənətkar 2010-cu ilə qədər Akademik Opera və Balet Teatrında fəaliyyət göstərib, repertuarda olan bir çox tamaşaları idarə edib.

K.Əliverdibəyov uzun illər indiki Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecində və Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında pedaqoji fəaliyyətlə məşğul olub, 1981-ci ildə dosent, 1992-ci ildə professor elmi dərəcəsi alıb.

1978-ci ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülüb. 2010-cu ildən Prezident təqaüdçüsü olub.

Görkəmli musiqi xadimi və pedaqoq Kazım Əliverdibəyovun xatirəsi onu tanıyanların, yetirmələrinin və sənətsevərin qəlbində yaşayacaq.

Allah rəhmət eləsin.

# Xalq artisti, tarzən Fikrət Verdiyev vəfat edib

Azərbaycan mədəniyyətinə ağır itki üz verib. Tanınmış tarzən, Xalq artisti, Prezident təqaüdçüsü Fikrət Verdiyev 22 dekabr 2022-ci il tarixində, 75 yaşında vəfat edib.



Fikrət Süleyman oğlu Verdiyev 2 sentyabr 1947-ci ildə Gəncə şəhərində anadan olub. 1957-1962-ci illərdə Gəncə şəhər 1 nömrəli Musiqi məktəbində tar ixtisası üzrə təhsil alıb. Sonra Gəncədə Qəmbər Hüseynli adına Orta İxtisas Musiqi Məktəbində həmin ixtisas üzrə təhsilini davam etdirib. Eyni zamanda Gəncə Pionerlər evi, Məktəblilər sarayı və Mədəniyyət evində özfəaliyyət kollektivlərinə rəhbərlik edib. 1967-ci ildə texnikum təhsilini başa vuraraq Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının Tar-dirijor, xalq ifaçısı fakültəsinə daxil olub. 1969-cu ildə Gəncədə "Göygöl" Xalq Çalğı Alətləri Ansamblını yaradıb.

Konservatoriya təhsilini başa vurduqdan sonra F.Verdiyev ansambla rəhbərliklə yanaşı, Gəncə Şəhər Orta İxtisas Musiqi Məktəbində pedaqoji fəaliyyətə də başlayır. 1977-ci ildə Azərbaycan SSR-in rəhbəri Heydər Əliyevin diqqət və qayğısı ilə ansambla "Dövlət mahnı və rəqs ansamblı" statusu verilib və F.Verdiyev bu kollektivə bədii rəhbər təyin olunub.

1990-cı ildə onun da səyləri ilə "Göygöl" Dövlət Mahnı və Rəqs Ansamblının bazasında Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyası yaradılıb və quruma bədii rəhbər təyin edilib. Burada çalışmaqla yanaşı, 1982-ci ildə Zeynəb Xanlarovanın yaratdığı ansamblda konsertmeyster kimi fəaliyyət göstərib, bu kollektivlə birgə 40-dan çox ölkədə Azərbaycan mədəniyyətini təbliğ edib.

Sənətkar 2000-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin nəzdində "Neftçi" Mahnı və Rəqs Ansamblını yaradıb, kollektivə rəhbərlik edib.

2011-ci ildən "Xan Şuşinski" Fondunun təsisçilərindən biri olaraq müxtəlif ölkələrdə Azərbaycan milli musiqisini uğurla təbliğ edən F.Verdiyev bir çox ustad sənətkarların yubiley tədbirləri və yaradıcılıq gecələrini keçirib, bir sıra yaradıcılıq müsabiqələrində münsif kimi fəaliyyət göstərib.

F.Verdiyev 1987-ci ildə respublikanın "Əməkdar artist"i, 2014-cü ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülüb. Prezidentin fərdi təqaüdçüsü idi.

Görkəmli sənətkar, səmimi insan F.Verdiyevin xatirəsi onu tanıyanların, həmkarlarının, sənətsevərlərin qəlbində yaşayacaq.

***

Dekabrın 22-də Təzəpir məscidində Fikrət Verdiyevlə vida mərasimi keçirilib. Mərasimdə mərhumun ailə üzvləri və sənət dostları iştirak ediblər.

Həyat yoldaşı Bəyimxanım Verdiyeva F.Verdiyevin sənətə bağlılığından danışıb: "O, 60 ilə yaxın Azərbaycan mədəniyyətinə xidmət edib. Onun ürəyi musiqi ilə döyünürdü. Bir müddət idi ki, xəstə idi. Xəstə olduğu dönəmlərdə yanımızda olduqları üçün dövlətimizə və Heydər Əliyev Fonduna təşəkkür edirəm".

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, Xalq artistləri Ramiz Quliyev, Zaur Rzayev, Mənsum İbrahimov, Möhlət Müslümov və digər tanınmış incəsənət xadimləri sənətkarın vəfatını Azərbaycan mədəniyyəti üçün ağır itki kimi dəyərləndirib, onun musiqiçi təşkilatçısı və tarzən olaraq fəaliyyətindən söz açıblar.

Vida mərasimindən sonra Xalq artisti "Qurd qapısı" qəbiristanlığında torpağa tapşırılıb.

Allah rəhmət eləsin.

# Onların hərəsi bir qəhrəmanı nişan verir...

## Tarix Muzeyindəki Vətən müharibəsi fondunda 260-dan çox şəhid və qaziyə aid yadigarlar qorunur

Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı şanlı Qələbədən iki il ötdü. Bu müddət ərzində dövlət qurumları, ictimai təşkilatlar, ayrı-ayrı müəssisələr tərəfindən şəhidlərin xatirəsinin əbədiləşdirilməsi məqsədilə müxtəlif tədbirlər həyata keçirilir. Şəhidlərin qəbirüstü abidələri, xatirə kompleksləri yaradılır, adları küçələrə, meydanlara, müəssisə və təşkilatlara, mədəni-maarif ocaqlarına verilir. Yaşadıqları evlərə barelyefləri vurulur, bəzilərinin işlədikləri müəssisələrdə xüsusi guşələr yaradılır, büstləri qoyulur.









Milli Azərbaycan Tarixi Muzeyində ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid və qazi olan həmvətənlərimizə məxsus geyim, xatirə əşyaları, sənədlər və fotoların toplanması, qorunması, tədqiqi və təbliği məqsədilə Vətən müharibəsi fondu yaradılıb. Fondun fəaliyyəti ilə bağlı ətraflı məlumat almaq üçün onun müdiri Şəfa Mövsümovla əlaqə saxladıq. Həmsöhbətimiz dedi ki, Vətən müharibəsi fondu 2021-ci ilin yanvar ayında Milli Azərbaycan Tarixi Muzeyi Elmi Şurasının qərarı ilə təsis edilib: "Həmin gündən muzeyin əməkdaşları bu fondun kolleksiyasını zənginləşdirmək üçün materialları toplamağa başladılar. Müxtəlif bölgələrdən olan şəhidlərimizə aid şəxsi əşyalar, hərbi geyimlər, sənədlər, fotolar və s. toplanılması işi qısa müddətdə fondun yaranmasını təmin etdi. Fond materialları əsasında 2021-ci ilin mayından 2022-ci ilin fevralınadək "Anadır arzulara hər zaman Qarabağ" adlı sərgi təşkil edilib. Həmin sərgidə ümumilikdə 205 şəhidin və 10 qazinin şəxsi əşyaları nümayiş etdirilib. 30 vitrindən ibarət olan bu sərgidə eksponatlarla yanaşı, 12 informasiya paneli, 7 iriölçülü banner, qüdrətli Ordumuz tərəfindən düşməndən ələ keçirilmiş 58 ədəd hərbi qənimət də yer alıb".

Şəfa Mövsümov bildirdi ki, fondda həmçinin Birinci Qarabağ müharibəsi, 2016-cı ilin Aprel döyüşləri, 2020-ci ilin Tovuz döyüşləri, 44 günlük Vətən müharibəsi və 2021-ci ilin noyabrın 30-da Qaraheybət təlim mərkəzində şəhid olmuş Dövlət Sərhəd Xidmətinin (DSX) bir qrup əməkdaşlarına aid materiallar da yer alır. Eyni zamanda Vətən müharibəsində xüsusi xidmətləri olan müvafiq dövlət qurumları – Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları, Dövlət Təhlükəsizliyi Xidməti, DSX, ANAMA və Müdafiə Sənayesi Nazirliyinin şəxsi heyətlərinin geyim növləri və ləvazimatlarının nümunələri, tədris və ideoloji vəsaitləri də fondda mühafizə edilir. Şəhidlərin hərbi formaları (baş geyimləri, kitel, şalvar, hərbi çəkmələri və s.), fəxri fərman, təşəkkürnamə, orden, medal və diplomların rəngli surətləri, eləcə də şəxsi əşyaları (saat, qolbaq, kompas, alışqan, təsbeh, pulqabı və s.) yaxınları tərəfindən fonda birdəfəlik təhvil verilir. Daxil olan materiallar arasında şəhidlərin hərbi təhsil və təlim illəri ilə yanaşı, döyüş yoluna aid fotoları da var.

Muzeydəki digər fondlar kimi, Vətən müharibəsi fondunun materiallarının da elmi-tədqiqat işlərinə cəlb ediləcəyini söyləyən müsahibim vurğuladı ki, torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizə aid materiallar əsasında elmi məqalələr, kataloqlar, broşürlər, kitabçalar və s. yazılması üçün bu fond elmi resurslara malikdir. Fondun materialları hərb tarixi, hərbi jurnalistika və Qarabağ müharibəsinin tədqiqi ilə məşğul olanlar üçün qiymətli mənbə ola bilər. Azərbaycanın Milli Qəhrəmanlarından 2016-cı ilin dekabrında şəhid olmuş Çingiz Qurbanov, 2020-ci ilin iyulunda Tovuz rayonu ərazisində qəhrəmancasına şəhid olmuş general-mayor Polad Həşimov və polkovnik İlqar Mirzəyev, həmçinin 2020-ci ilin oktyabrında Vətən müharibəsində Qubadlı uğrunda döyüşlərdə şəhid olan polkovnik Şükür Həmidova aid materiallar da Vətən müharibəsi fondunda daimi mühafizədədir.

Hazırda fondda 3150 ədəd inventarın olduğunu bildirən Ş.Möhsümov bunların fondun əməkdaşları tərəfindən xüsusi proqram vasitəsilə pasportlaşdırıldığını dedi: "Ümumilikdə fondda 250-dən artıq şəhid və 15-dən artıq qaziyə aid yadigarlar qorunur. Fond materialları əsasında mütəmadi olaraq muzeyin saytında informasiya xarakterli yazılar gedir. Vətən müharibəsi tədqiqatçıları fonda müraciət edərək araşdırma aparırlar. Artıq fond kolleksiyasına istinadən müxtəlif yerli və xarici konfranslarda elmi məruzələr edilib, müxtəlif toplularda məqalələr dərc olunub. Ölkə televiziyalarına Vətən müharibəsi fondunun yaranması, fəaliyyəti və görülən işlər barədə müsahibələr verilib, şəhid və qazilərimizə aid sənədli filmlərin çəkilməsində fondun eksponatlarından istifadə edilib".

Hazırda fondun kolleksiyasının zənginləşdirilməsi məqsədilə şəhid və qazilərimizə aid materialların toplanılması işi davam etdirilir.

**Nurəddin**

# "Dünyadan keçən Nazim və Nazimdən keçən dünya"

## Görkəmli türk şairinin 120 illiyinə həsr olunan konfrans

Bu il görkəmli türk şair-dramaturqu, ssenarist Nazim Hikmətin (1902-1963) anadan olmasının 120 illiyidir. Bu münasibətlə dekabrın 20-də Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində "Dünyadan keçən Nazim və Nazimdən keçən dünya" mövzusunda respublika elmi konfransı keçirilib.



Muzeyin baş direktoru akademik Rafael Hüseynov "Azərbaycanın, türklüyün və dünyanın Nazim Hikməti" mövzusunda məruzə ilə çıxış edib. Alim Nazim Hikmətin təkcə türk xalqının deyil, bütün Şərq xalqlarının poeziyasına təsir göstərdiyini bildirib. Şairin həyat və yaradıcılıq yolunun Azərbaycanla bağlı məqamlarına diqqət yetirən akademik qeyd edib ki, söz dünyasının nəhəng simalarından olan Nazim Hikmət Azərbaycan, Türkiyə və dünya ədəbiyyatında silinməz iz qoyub.

"Nazim Hikmət ölkəmizdə hər zaman ehtiramla anılacaq. Çünki Azərbaycan onun üçün Vətən olmuşdur. Nazim gənc yaşlarında 1927-ci ildə ilk dəfə Bakıya qədəm qoydu. O, yaradıcılığa Türkiyədə başlasa da, ilk şeirlər kitabı "Günəşi içənlərin türküsü" 1928-ci ildə Bakıda işıq üzü görüb", – deyən Rafael Hüseynov görkəmli şairin görünməz, dərin bağlarla Azərbaycana bağlı olduğunu vurğulayıb.

Qeyd olunub ki, N.Hikməti tanıyanlar onun sıradan bir insan deyil, dahi olduğuna heç zaman şübhə etmirdilər. Həyatının böyük hissəsini qürbətdə yaşamış böyük şair bütün varlığı ilə hər zaman Türkiyəni sevib və doğma vətəninin həsrətini çəkib. Türkiyədə doğulan və əsilzadə nəslin nümayəndəsi olan Nazim gənc yaşlarından siyasətə, kommunizm və inqilabi ideyalara bağlanmışdı. 1950-ci ildə həbsxanadan azad edilən şair qısa ömür yaşamasına baxmayaraq, bu qısa ömrünə "şeir" adlı böyük bir dünya sığdırıb.

Akademik türk ədəbiyyatında sərbəst şeirin banisi olan şairin əsərlərinin bədii-estetik xüsusiyyətlərinə görə seçildiyini vurğulayıb: "Nazim Hikmətin şeirləri türkcə səslənəndə, rus dilinə tərcümə olunanda və digər dillərdə oxunanda da onun içərisindəki fikir oxucunu təsir altına salır. Rusiyanın neçə böyük şairi Nazim Hikmətdən bəhrələndiyini etiraf edib".

Konfransın plenar iclasında "Nazim Hikmət şeirlərində "su" konseptinin ifadə vasitələri", "Xalq yazıçısı Anarın böyük Nazim Hikmət sevgisi", "Azadlıq və bərabərlik carçısı – Nazim Hikmət", "Nazim Hikmət poeziyasında vətənpərvərlik motivləri" mövzularında məruzələr dinlənilib.

Tədbirdə görkəmli şairin həyat və fəaliyyətini, onun Azərbaycana səfərlərini özündə əks etdirən fotoslayd nümayiş olunub.

Konfrans işini "Nazim Hikmət yaradıcılığı və incəsənət", "Nazim Hikmət və Azərbaycan ədəbiyyatı", "Nazim Hikmətşünaslıq: Türkiyədə, Azərbaycanda, dünyada" və "Nazim Hikmət şeiri və poetika məsələləri" üzrə bölmə iclasları ilə davam etdirib.

# Böyük çillə – qışımız çiləsiz olsun...

Bəşər övladı qədim zamanlardan gün, ay və il üzərində müəyyən təbii bölgülər aparıb. Bu bölgünün əsasında təbiətdə baş verən dəyişikliklər və insanların həmin proseslərə münasibəti dayanır.

Xalq təqviminə görə, qış fəsli şərti olaraq üç hissəyə bölünür: dekabrın 21-dən yanvarın 30-dək Böyük çillə, yanvarın 31-dən fevralın 19-dək Kiçik çillə, fevralın 20-dən martın 20-dək isə Boz ay adlanır. Hər il dekabrın 21-də Yer qış günəş duruşu nöqtəsindən keçərkən fəsil dəyişikliyi baş verir. Yəni payız öz yerini qışa ötürür. Dekabrın 21-i həm də gecənin ən uzun, gündüzün isə ən qısa olduğu vaxtdır. Həmin gündən gecələr yavaş-yavaş qısalmağa, gündüzlər isə uzanmağa başlayır. Bu, martın 21-dək davam edir, həmin gün isə yaz gecə-gündüz bərabərliyi hadisəsi baş verir.

Artıq Böyük çillənin ilk günləridir. Deməli, qış fəsli ölkəmizə qədəm qoyub. Xalqın inancına görə, Böyük çillə qışın ən sərt 40 gününü əhatə edir. Qar insanlarda bolluq-bərəkətə inam yaratsa da, havaların şaxtalı, çovğunlu olması bir tərəfdən səhhətimizdə, əmək fəaliyyətimizdə müəyyən problemlər yaradır. Buna görə də Böyük çillə soyuq, ağır günlər kimi yadda qalır. Bəzən Böyük çillədə havalar gözlənilən səviyyədə soyuqla, qar-boranla özünü göstərmir. Cəmi iyirmi gün ömrü olan Kiçik çillə daha dözülməz, şaxtalı-boranlı keçir.



AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi filologiya üzrə fəlsəfə doktoru Əpoş Vəliyev bildirir ki, Böyük çillə gecəsi bir çox rayonlarda təmtəraqla qeyd edilir. Qədim türklərin inancına görə, bayramın əsas ideyası işığın qaranlıq üzərində simvolik qələbəsidir. Həmin gecə xeyirlə şər güclü mübarizə aparır. O zaman çoxlu qar yağarsa, sonrakı fəsillərdə məhsulun bol olacağını düşünərlər. İnanclara görə, bahar öz barını-bərəkətini qışdan alır. Qış nə qədər qarlı olarsa, bahar da bir o qədər bol-bərəkətli, məhsullu olar.

Folklorşünas çillə axşamı qarpız kəsmək kimi dədə-baba adət-ənənəsinin bu gün də yaşadıldığını deyir. Vurğulayır ki, çillə axşamı ailə üzvləri, qohum-əqrəba bir yerə yığışar və ilin ən uzun gecəsini süfrəyə düzülmüş çoxlu meyvə, şirniyyat, quru meyvələr, çərəzlər, meyvə şirələri və əsasən də xəmirdən hazırlanmış xörəklərlə qeyd edərlər.

Bu gecənin ən əhəmiyyətli atributlarından biri də qarpızdır. Hər bir ailə həmin gecə mütləq bir qarpız kəsməyə çalışar. Bu qarpızı isə hələ bir neçə ay əvvəldən, qarpız mövsümünün sonlarından xüsusi olaraq çillə üçün saxlayarlar. Çillə qarpızı xüsusi növ qarpızdır, qabığı qalın olduğu üçün soyuğadavamlı olur və uzun müddət saxlamaq olur. Onu tayalarda samanın, otun içərisində və ya zirzəmilərdə saxlayırlar. Çillə axşamı süfrəyə ən sonda qarpız gətirilir və ailənin ağsaqqalı, böyüyü tərəfindən kəsilərək dilimlənir və paylanılır. Əgər çillə üçün bir neçə qarpız saxlanılıbsa, o zaman onlar kəsilib pay göndərilir. Bu adət həm də qohum-əqrəba, qonşular arasında mehribanlığı, qohumluq bağlarının möhkəmliyini də göstərir.

Adət üzrə nişanlı qızların, təzə gəlinlərin Çillə bayramına da gedirlər. Aparılan xonçalar içərisində çillə qarpızı xüsusi yer tutur. Qarpız xonçasına dəstəyinə qırmızı lent bağlanmış bir bıçaq da qoyulur. Qarpız oğlan evindən aparılan həmin bıçaqla kəsilir və sonra bıçaq oğlan evinə qaytarılır. Yeni ailə quran gənclərə isə qızın valideynləri tərəfindən qarpız pay göndərilir.

Çillə axşamı bəzi rayonlarda niyyət mərasimi də icra olunur. Çillə qarpızının baş tərəfi kəsilərək dörd yerə bölünür. Niyyəti tutan şəxs qarpızın kəsilən həmin dörd tikəsini başının üstündən arxaya atır. Əgər ikisi ağ və ikisi də yaşıl olarsa, demək ki, niyyət qəbul ediləcək. Yox əgər hamısı yaşıl və ya üçü yaşıl biri ağ, ya da üçü ağ biri yaşıl olarsa, hesab olunur ki, niyyət baş tutmayacaq. Çillə qarpızının içinin tünd-qırmızı və ya ağlı-qırmızılı olması da qışın sərt və ya mülayim keçəcəyinə yozular. Həmin gün kəsilən qarpızın tumlarını toxumluq götürərlər və inanca görə, bu tumlardan gələn il bol məhsul alınar.

İlin bütün fəsilləri gözəldir. Bu gözəlliyi hiss etmək üçün sağlamlıq və xoş əhvali-ruhiyyə birinci şərtdir. Böyük çillə böyük sıxıntılar deyil, xoş günlər gətirsin...

**F.Yunisli**

# “Atabəylər: Şəmsəddin Eldəniz” serialının musiqi tərtibatı üçün müsabiqə

Azərbaycanın ilk çoxseriyalı tarixi bədii-televiziya filmi – “Atabəylər: Şəmsəddin Eldəniz” serialının musiqi tərtibatının (soundtrack) hazırlanması üçün müsabiqə elan olunur.




İştirakçılar 25 dekabrdan etibarən istənilən janrlar üzrə öz bəstələrini təqdim edə bilərlər. Çoxseriyalı filmdə döyüş səhnələri ilə yanaşı, dövlətçilik, sevgi, ayrılıq, xəyanət, sevinc, təlaş və sair mövzular yer alacaq. Müsabiqə üçün musiqilərin leytmotivini təqdim edərkən filmin mahiyyəti, dəyişən səhnələr və epizodlar mütləq nəzərə alınmalıdır.

“Atabəylər: Şəmsəddin Eldəniz” çoxseriyalı bədii televiziya filminin 24 bölümdə çəkilməsi planlaşdırılır. Film Azərbaycan Atabəylər dövlətinin qurucusu Şəmsəddin Eldənizin həyatı və keşməkeşli fəaliyyətindən bəhs edəcək. Burada eyni zamanda əsas məqsədlərdən biri kimi Orta əsrlər Azərbaycan coğrafiyasındakı mövcud dövlət quruluşu, sosial münasibətlər, ictimai-siyasi vəziyyət, milli-mənəvi irs, intibah dövrünü yaşayan mədəni-ədəbi mühit və digər reallıqlar detallı şəkildə gündəmə gətiriləcək.

Müsabiqənin şərtlərinə görə, hər iştirakçı ən çoxu 5 (beş) musiqi parçası və fərqli leytmotivlər təklif edə bilər. Musiqilərin, leytmotivlərin çox olması həmin iştirakçının qalib gəlmək şansını artıra bilər. Lakin say çoxluğu mütləq şərt deyil; önəmli olan musiqinin orijinallığı və filmə uyğun gəlməsidir.

Çoxseriyalı filmin musiqi müşayiətini zənginləşdirmək və orijinallığı artırmaq məqsədilə qalib gəlmiş bir neçə iştirakçını birgə işləmək üçün layihəyə cəlb etmək mümkündür.

İştirakçılar həmçinin birləşərək qrup şəklində də öz təkliflərini verə bilərlər. Bu halda hər bir müəllifin (bəstəkarın) adı qeyd edilməlidir. Qrup şəklində təklif verən tərəf bir iştirakçı kimi qiymətləndiriləcək və qrup qalib gəldikdə mükafat ayrı-ayrılıqda müəlliflərə deyil, yalnız bir dəfə bütöv qrupa ödəniləcək.

Aşağıdakı qaydada mükafatlandırılma nəzərdə tutulub:

**1-ci yer üçün:** 1500 manat
**2-ci yer üçün:** 1000 manat
**3-cü yer üçün:** 500 manat

Qalib gəlmiş bir və ya bir neçə iştirakçı ilə filmin bütün bölümləri üçün musiqilərin yazılması məqsədilə müqavilə danışıqlarına başlanılacaq.

Müsabiqə üçün bəstələrin son təqdim edilmə tarixi: 25 yanvar 2023-cü ildir.

Qaliblər Azərbaycan Televiziyası, Mədəniyyət Nazirliyi və “Şahdağ Film”in peşəkar mütəxəssislərindən ibarət münsiflər heyətinin rəyinə əsasən müəyyən olunacaq.

Ətraflı məlumat Mədəniyyət Nazirliyinin saytının (culture.gov.az) “Elanlar” bölməsində.

# Həmişə çalışırdı ki, kadrlar keyfiyyətli olsun...

Kollektiv əməyin məhsulu olan kinonun uğur qazanmasında operatorların rolu əvəzsizdir. Həyat hekayələrinin, düşünülmüş hadisələrin inandırıcı təsir bağışlamasında düzgün mizanlanmış kadrların, həssas görüntülərin əhəmiyyəti böyükdür.

Tanınmış kinooperator Əlihüseyn Hüseynov (10.12.1922 – 4.6.1987) da imza atdığı hər bir yaradıcılıq işində peşəkarlıq nümayiş etdirib, üslub zənginliyi ilə diqqət çəkib. 30-dan çox müxtəlif janrlı filmdə (o cümlədən 20-dən artıq sənədli, 9 tammetrajlı bədii, 2 animasiya) quruluşçu operator, operator assistenti, ikinci operator kimi çalışıb, özünəməxsus dəst-xətt ilə seçilib. Sənətkarı anadan olmasının 100 illiyi münasibətilə yad edərək yaradıcılıq yoluna nəzər salmaq istəyirik.

Qubada anadan olan Əlihüseyn Hüseynov kinoya, fotoqrafiya sənətinə hələ məktəbdə oxuyarkən maraq göstərib. Ali kino təhsili almaq istəsə də, İkinci Dünya müharibəsinin başlaması arzularını yarımçıq qoyub. O da cəbhəyə yollanıb. Əvvəlcə mühəndis istehkamçı batalyonunda atıcı kimi hazırlıq keçib, sonra I Ukrayna cəbhəsində gedən döyüşlərdə iştirak edib. 1943-cü ildə döyüşlərin birində ağır yaralanıb, uzun müalicədən sonra 1945-ci ildə ordudan tərxis olunub.

Bir müddət Quba Sənaye Kombinatında fotoqraf işləyib. Sevdiyi işlə məşğul olsa da, kinooperator olmaq məqsədilə 1948-ci ildə Moskvaya gedib. Ümumittifaq Kinematoqrafiya İnstitutunun Kinooperatorluq fakültəsinə daxil olub. Ali kino təhsilini bitirib (1954) vətənə qayıdıb, Bakı kinostudiyasında (indiki “Azərbaycanfilm”) işləyib.



İlk dəfə kinorejissor Tofiq Tağızadənin quruluş verdiyi “Görüş” bədii filmində (1955) kinooperatorlar Teyyub Axundovun və Cavanşir Məmmədovun assistenti olub. Bundan sonra “Qara daşlar”, “Əmək və qızılgül” kinodramlarında ikinci operator kimi çalışıb. Görkəmli kino xadimləri ilə çiyin-çiyinə işləməsi operatorun peşə təcrübəsini artırıb, müxtəlif mövzularda sərbəst işləməsinə imkan yaradıb.

60-cı illərdə kinostudiya ilə yanaşı, televiziyada da çalışır. Televiziyada “Bizim opera” (rejissor-ssenarist-operator), “Süd kombinatında” (rejissor-ssenarist-operator), “Konsert” (operator), kinostudiyada “Mahnı qanadlarında” (rejissor-operator), “Pambığın suvarılması texnikası” (rejissor-operator), “Çobanlar” (rejissor-operator), “Bacarıqlı əllər” (rejissor-operator) və başqa sənədli filmlər çəkib.



“Aygün” bədii televiziya filminə (1960) müstəqil operator kimi quruluş verdikdə isə fərdi yaradıcılıq üslubunu daha geniş planda təsdiqləyib.

Kinooperator **Fəramiz Məmmədovla** Əlihüseyn Hüseynovun yaradıcılığına daha yaxından bələd oluruq: “Əlihüseyn peşəkar operator idi. Onu kinostudiyaya gəldiyim ildən (1959) tanıyırdım. O vaxt telestudiyada “Aygün” filmini çəkirdi. Bir gün kinostudiyaya gəlmişdi. Filmin gecə çəkilişləri üçün ona yüksəkkeyfiyyətli həssas lent lazım idi. Həmin vaxtlar mən kinostudiyada operator assistenti kimi çalışırdım. Çəkdiyim kadrlara (şəhərin gecə mənzərələrinə) baxdı, bəyəndi və ona Bakının gecə təsvirləri lazım olduğunu bildirdi. “Əlimdə həssas lent olmadığı üçün işıq çatışmazlığı yaranır, gecə kadrları keyfiyyətli alınmır”, – dedi. Ona lazım olan kadrları çəkib çatdıracağımı söylədim və bulvara gedib istədiyi təsvirləri, gecə kadrlarını 24 kadr yerinə 12 kadr etdim. Bu kimi çəkilişlə gecə təsvirlərini işıqlı şəkildə əldə etdim. Həmin kadrları heç bir əmrə əsasən yox, dost kimi çəkib Əlihüseynə təhvil verdim, o da bəyəndi, filmə daxil etdi...”.

Bundan sonra bir neçə sənədli film ekranlaşdıran Əlihüseyn Hüseynovu kinorejissor Arif Babayev çəkdiyi “Zirvə” novellasına operator kimi quruluş verməyə dəvət edir. Əməkdar mədəniyyət işçisi, kinooperator **Sərdar Vəliyevin** bu filmlə bağlı xatirələri yerinə düşür: “Əlihüseyn sənətinin ustası idi. Onunla “Zirvə” novellasında birgə çalışmışıq. Filmin natura çəkilişlərinə məkan axtarışı üçün birhəftəliyə (filmin rejissoru, rəssamı, direktoru, operator və mən) Şimali Qafqaza, Nalçik şəhərinə ezam olunduq. Çəkilişləri şəhərin yaxınlığında olan Elbrus dağında aparmağı qərara aldıq. Bir müddət sonra yaradıcı heyətlə birlikdə yenidən Nalçikə getdik. Ordan da şəhərin yaxınlığında yerləşən, alpinistlər üçün salınan şəhərciyə yollandıq. Bələdçilik etmək üçün bizə 6 nəfər alpinist ayırdılar. Texniki avadanlıqları maşına yığırdıq, dağın ətəyinə çatdıqda isə alpinistlərin köməyi ilə dağa qaldırırdıq. Qalxdığımız yüksəklikdən aşağı baxanda adamı vahimə bürüyürdü. Hər yer buz bağlamışdı. Filmin qəhrəmanlarının dağa çıxdığı kadrları Elbrus dağında çəkdik. Təbii ki, çəkilişləri əl və çiyin kamerası ilə aparırdıq. Alpinistlər bizi iplə bağlayıb bir-bir yuxarı çəkirdilər. İşimizi qurtardıqdan sonra eyni çətinliklə də dağdan enirdik. Çox əziyyətli bir film idi. Bir ay Nalçikdə qaldıq.


“Sehrli xalat” filminin çəkilişləri (1964)

Əlihüseyn həmişə çalışırdı ki, kadrlar yaxşı alınsın. Operatorluq sənətinin bir çox sirlərini ondan öyrənmişəm. Onu özümə müəllim hesab edirəm. Bəzən operatorlardan nəsə soruşanda “sonra başa salaram” deyirdilər. Əlihüseyn isə çəkilişi saxlayırdı, hamısını başa salırdı, sonra işinə davam edirdi. Çox mədəni insan idi, həmişə də gülümsəyirdi.

Filmin dekorasiya çəkilişlərini Bakıda çəkdik. Montaj vaxtı bəzi səhnələri çəkmək lazım gəldi. Həmin kadrları Quba-Xaçmaz yolunun kənarında yerləşən Beşbarmaq dağında çəkdik. Filmi 5 aya təhvil verdik. Bu filmdən sonra mən xronika şöbəsində işləməyə başladım. Orda peşəkar rejissorlar çalışırdı. Bir ildə 30 sənədli film çəkilirdi. Həmin filmlərdən 16-sı ümumittifaq ekranlara göndərilirdi, qalanı isə respublikada nümayiş olunurdu. Bir müddət sonra  Əlihüseyn də orda çalışdı. Bir neçə sənədli film çəkdikdən sonra oradan getdi...”.

Sənətini sevən, mövzuya aid kadrları ustalıqla ekranlaşdıran operatorun bədii kinoda az fəaliyyət göstərməsi təəssüf doğurur. Onun quruluş verdiyi “İstintaq davam edir” filmində natura çəkilişləri, şəhərin mənzərəsi, dənizin gözəlliyi mövzunun axıcılığına rəvac verir, personajların xarakterləri, məqsəd və düşüncələri dəqiq prizmadan göstərilir. “Qanun naminə” filmində isə operatorun müxtəlif rakurslu planlardan bacarıqla istifadə etməsi hadisələrin məzmununu diktə edir, tamaşaçını hadisələrin şahidinə çevirir. Personajların həyat mövqeyi, düşüncə və davranışları məqamında nəzərə çarpır, kadrların daxili dinamikası təmin edilir.

Fəramiz Məmmədovun hər iki filmlə bağlı qeydləri: “İstintaq davam edir” filmində Əlihüseynlə operator assistenti kimi çalışdım. Çox bacarıqlı operator idi, amma hərdən quruluşçu rejissor Əlisəttar Atakişiyevlə mübahisələri olurdu. Əlisəttar müəllim Əlihüseynin yaradıcılığını çox bəyənirdi. Buna görə də onunla işləyirdi. Mübahisələri düşsə də, sonda yenə də Əlihüseynin çəkdiyi kadrları saxlayıb filmə daxil edirdi.

“Qanun naminə” filmində Əlihüseynlə ikinci operator kimi işlədim. Filmə kinorejissor Muxtar Dadaşov quruluş verirdi. O özü də sənədli kino ustası (rejissor-operator kimi) idi, Əlihüseynin işlərini çox bəyənirdi. Filmin natura çəkilişlərini Zığda, Şamaxıda, Qusarda apardıq. Qaloşun qayadan yıxılma səhnəsini helikopterdən çəkdik. Mehmanın turnikdə idman etdiyi və Qaloşun bu zaman namaz qıldığı kadrları bir neçə üsuldan istifadə edərək (o cümlədən sallanaraq) lentə aldıq. Filmin baş qəhrəmanını canlandıran Bimbolat Vatayev idmançı idi, atı da özü sürürdü, rolunu da çox həvəslə oynayırdı. Onunla işləmək çox rahat idi. Əlihüseyn işini gözəl bildiyinə görə bəzi hallarda rejissor işinə müdaxilə edirdi, təkliflərini verirdi. Muxtar müəllim də onun fikirlərinə etiraz etmirdi.

Əlihüseyn həmişə çalışırdı ki, kadrlar keyfiyyətli olsun. Həmin filmdə bir sıra maraqlı kadrlar var ki, Əlihüseyn özü onları fikirləşib tapır, istədiyi təsvirləri quraşdırma kadrlarla filmə daxil edirdi. Məsələn, Züleyxanın yuxusunda onu qovan əqrəbin fırlanması, dindirilən adamların portretlərinin yerdəyişməsi və s.

Kinostudiyanın laboratoriyasından ən çox Əlihüseyn istifadə edirdi. Aparatlar vasitəsilə su damcıları, dumanlı təsvirlər və digər lazımlı görüntülər əldə edirdi. Çox istedadlı, savadlı adam idi. Fasilə zamanı dünyada baş verən ictimai-mədəni proseslərdən danışırdı, fəlsəfi fikirləri bizi heyran edirdi. Bir neçə dəfə evlərində olmuşam. Qonaqpərvər insan idi. Təəssüf ki, ailə qurmadı. Evində tək yaşayırdı. Qardaşı Əkrəm ona çox dayaq olurdu. Ömrünün sonuna yaxın onda tək qalmaq fobiyası yaranmışdı. Bizə “məni tək qoymayın, tez-tez gəlin” deyirdi. Bir müddət sonra eşitdim ki, dünyasını dəyişib. Düşünürəm ki, bəlkə də, təkliyi də onu məhv elədi. Allah ona rəhmət eləsin...”.

**Şəhla Əmirli**
**kinoşünas**

## Xatirə təqvimi — 24-27 dekabr

### Azərbaycan

**24 dekabr 1872** – Yazıçı-publisist, pedaqoq Ömər Faiq Nemanzadə (1872 – 10.10.1937) Gürcüstanda, Ahıska (Axalsıx) qəzasının Azqur kəndində doğulub. “Şərqi-rus” qəzetinin, “Molla Nəsrəddin” jurnalının yaradıcılarındandır. Gürcüstanda və Azərbaycanda xalq maarifi sahəsində çalışıb, repressiya qurbanı olub.

**24 dekabr 1926** – Əməkdar artist, balaban və klarnet ifaçısı Bəhruz Mahmud oğlu Zeynalov (1926 – 25.5.1998) Bakıda anadan olub.

**24 dekabr 1939** – Şair, yazıçı, tərcüməçi, Əməkdar mədəniyyət işçisi Məmməd Muxtar oğlu Aslan (1939 – 23.9.2015) Kəlbəcər rayonunun Laçın kəndində doğulub. Kitabları: “Durnalar lələk salır”, “Ömrün yarı yaşında”, “Saxla izimi, dünya” və s.

**24 dekabr 1954** – Xalq artisti Natalya Valeh qızı Tağıyeva (1954 – 16.1.2005) anadan olub. Dövlət Rus Dram Teatrının aktrisası olub, filmlərdə (“Dədə Qorqud”, “Onun bəlalı sevgisi” və s.) çəkilib.

**25 dekabr 1896** – Əməkdar incəsənət xadimi, kino istehsalı təşkilatçısı Teymur Əli oğlu Hüseynov (1896-1973) anadan olub. “Azərbaycanfilm” kinostudiyasında 30-dan çox bədii və sənədli filmin direktoru olub.

**25 dekabr 1906** – Əməkdar incəsənət xadimi, görkəmli kinorejissor, operator Əlisəttar Ələsgər oğlu Atakişiyev (1906 – 7.11.1990) Bakıda anadan olub. “Bir qalanın sirri”, “Bizim küçə”, “Sehrli xalat”, “İstintaq davam edir” filmlərinə quruluş verib, “O olmasın, bu olsun”, “Uzaq sahillərdə” filmlərinin operatoru olub.

**25 dekabr 1906** – Filologiya elmləri doktoru, professor Əli Abdulla oğlu Sultanlı (1906-1960) Naxçıvanda doğulub. Antik ədəbiyyat, Azərbaycan dramaturgiyasının tarixinə dair kitabların müəllifidir.

**25 dekabr 1908** – Xalq artisti, teatr rejissoru, aktyor İbrahim (Miribrahim) Tağı oğlu Həmzəyev (1908-1982) Gəncə şəhərində doğulub. 1937-ci ildən Naxçıvan Dövlət Musiqili Dram Teatrında çalışıb, teatrın direktoru, baş rejissoru olub.

**25 dekabr 1909** – Xalq artisti, teatr rejissoru Ələsgər Məmmədtağı oğlu Şərifov (1909 – 8.9.1982) Şamaxıda doğulub. Akademik Milli Dram Teatrında çalışıb, “Səbuhi” filmində M.Ş.Vazeh rolunda çəkilib.

**25 dekabr 1910** – Tarixçi, Azərbaycan EA-nın müxbir üzvü Zülfəli İmaməli oğlu İbrahimov (1910-1972) anadan olub. Tarix İnstitutunun direktoru (1960-1967) işləyib.

**25 dekabr 1923** – Əməkdar incəsənət xadimi, rejissor Hüseyn Musa oğlu Sultanov (1923 – 31.3.1993) Tovuz rayonunda anadan olub. Gəncə Dram, Gənc Tamaşaçılar teatrlarında çalışıb.

**25 dekabr 1931** – Azərbaycanda kitabxanaşünaslıq elmi məktəbinin banisi, tarix elmləri doktoru, professor, Əməkdar mədəniyyət işçisi, Əməkdar elm xadimi Abuzər Alı oğlu Xələfov (1931 – 27.4.2020) Göyçə mahalının (Ermənistan SSR) Cil kəndində doğulub. 50 ildən çox BDU-nun Kitabxanaşünaslıq kafedrasının müdiri işləyib.

**25 dekabr 1932** – Əməkdar rəssam Kamal Əmirulla oğlu Səmədzadə (1932-2019) Xızı rayonunda anadan olub. Batika sənət növündə əsərlər yaradıb. Azərbaycan Dövlət İncəsənət İnstitutunda, Dövlət Rəssamlıq Akademiyasında müəllim işləyib.

**25 dekabr 1934** – Ədəbiyyatşünas alim, şair-publisist, professor Famil Mehdi (Famil Ağalar oğlu Mehdiyev; 1934 – 18.9.2003) Ağdam rayonunun Sarıhacılı kəndində doğulub.

**25 dekabr 1935** – Xalq yazıçısı Yusif Səmədoğlu (Vəkilov; 1935 – 17.8.1998) anadan olub. “220 saylı otaq”, “Qalaktika” hekayələr toplusu, “Qətl günü” romanının müəllifidir. “Yeddi oğul istərəm”, “Qətl günü” filmlərinin ssenarisini yazıb. Milli Məclisin deputatı (1995-1998) olub.

**25 dekabr 1941** – Xalq artisti Zemfira Məmmədəli qızı Əliyeva (1941 – 16.11.1995) Şəmkir rayonunun Morul kəndində doğulub. Gəncə və Naxçıvan teatrlarında, Milli Dram Teatrında çalışıb, filmlərdə çəkilib.

**25 dekabr 1954** – Əməkdar incəsənət xadimi, şair Ağalar Həmzə oğlu Mirzə (1954 – 5.3.2008) Şabran rayonunda doğulub. Azərbaycan Televiziyasında şifahi xalq yaradıcılığına aid verilişlərin müəllifi olub.

**25 dekabr 2016** – Xalq artisti, tanınmış xanəndə Ağaxan Minaxan oğlu Abdullayev (6.2.1950 – 2016) vəfat edib.

**25 dekabr 2021** – İrəvan Dövlət Azərbaycan Dram Teatrının aktyoru Məmməd Eldəniz oğlu Zeynalov (1978-2021) vəfat edib.

**26 dekabr 1910** – Yazıçı Yusif Şirvan (Yusif Əsgər oğlu Əsgərov; 1910-1979) Şamaxıda anadan olub. Əsərləri: “Şəfəq”, “Buludlar dağılır”, “Məzunlar” (romanlar), “Sularda yanğın”, “Ömür çiçəklənir” (povestlər) və s. Rus dilindən tərcümələr edib.

**26 dekabr 1919** – Xalq artisti, rəqqasə Əminə Paşa qızı Dilbazi (1919 – 30.4.2010) Qazaxda anadan olub. “Çinar”, “Sevinc” qızlar ansambllarını yaradıb. 1949-cu ildən Bakı Xoreoqrafiya Məktəbində dərs deyib. “O olmasın, bu olsun” filmində çəkilib. “Ulduz”, “Arşın mal alan” (1965) filmlərində rəqslərə quruluş verib.

**26 dekabr 1950** – Xalq artisti Nuriyyə Əliağa qızı Əhmədova (1950 – 10.10.2015) Şəkidə anadan olub. Musiqili Komediya Teatrında çalışıb, “Bəxt üzüyü”, “Həm ziyarət, həm ticarət” və s. filmlərdə çəkilib.

**27 dekabr 1897** – Xalq artisti Yuzef Davidoviç Çarski (Tanxelson; 1897-1948) Tiflisdə doğulub. Dövlət Rus Dram Teatrının aktyoru (1928-ci ildən) olub.

**27 dekabr 1912** – Əməkdar incəsənət xadimi, kinorejissor Zeynəb Talıb qızı Kazımova (1912 – 25.9.1984) anadan olub. “Azərbaycanfilm” kinostudiyasında bir sıra filmlərin (“Fətəli xan”, “Telefonçu qız”) 2-ci rejissoru olub, sənədli filmlərə quruluş verib.

**27 dekabr 1932** – Xalq artisti, tanınmış bəstəkar Oqtay Kazımi (Oqtay Məmməd oğlu Kazımov; 1932 – 9.8.2010) Astara şəhərində doğulub. 200-dək mahnının, tamaşalara musiqinin, “Şəhidlər” simfoniyası, “Hophopnamə” oratoriyası və s. əsərlərin müəllifidir.

**27 dekabr 1934** – Xalq rəssamı, heykəltəraş, Dövlət mükafatları laureatı İbrahim İsmayıl oğlu Zeynalov (1934 – 6.3.2008) Bakıda doğulub. İmadəddin Nəsimi (T.Məmmədovla birgə), Şah İsmayıl Xətai (Z.Mehdiyevlə birgə) və b. görkəmli şəxsiyyətlərin abidələrinin həmmüəllifidir. Milli İncəsənət Muzeyinin direktoru işləyib.

**27 dekabr 1938** – Xalq artisti Səfurə Ağabala qızı İbrahimova (1938 – 21.12.2020) Bakıda anadan olub. Milli Dram Teatrında çalışıb. “Sevil”, “Arşın mal alan”, “Alma almaya bənzər”, “Dərviş Parisi partladır”, “Qayınana” və s. filmlərdə çəkilib.

**27 dekabr 1990** – Xalq artisti, tanınmış xanəndə Əbülfət Əsəd oğlu Əliyev (30.12.1926 – 1990) vəfat edib.

**27 dekabr 2021** – Əməkdar artist, aktyor, rejissor Zilli Yunus oğlu Namazov (15.10.1951 – 2021) vəfat edib.

### Dünya

**24 dekabr 1798** – Polyak şairi Adam Miskeviç (Adam Bernard Mickiewicz; 1798 – 26.11.1855) anadan olub.

**24 dekabr 1867** – Türk şairi Tofiq Fikrət (Mehmet Tevfik Fikret; 1867-1915) İstanbulda doğulub.

**24 dekabr 1906** – İngilis yazıçısı, detektiv əsərlər müəllifi Ceyms Hedli Çeyz (James Hadley Chase – Rene Brabazon Raymond; 1906-1985) anadan olub.

**25 dekabr 1813** – Alman şairi Fridrix Vilhelm Veber (Friedrich Wilhelm Weber; 1813-1894) anadan olub.

**25 dekabr 1977** – Dünya şöhrətli ingilis aktyoru, rejissor, ssenarist Çarli Çaplin (Charles Spencer Chaplin; 16.4.1889 – 1977) vəfat edib.

**26 dekabr 1891** – Amerika yazıçısı və rəssamı Henri Miller (Henry Valentine Miller; 1891-1980) anadan olub.

**27 dekabr 1901** – Alman aktrisası, müğənni Marlen Ditrix (Marlene Dietrich – Marie Magdalene Dietrich; 1901 – 6.5.1992) anadan olub.

**Hazırladı: V.Orxan**

№95 (1968)
23 dekabr 2022
www.medeniyyet.az

# Daşkənd Şərqşünaslıq Universitetində Azərbaycan dili fakültəsi açılacaq

Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) təşəbbüsü və layihəsi ilə Daşkənd Dövlət Şərqşünaslıq Universitetində Azərbaycan dili fakültəsinin yaradılması üzrə işlər aparılır.

Bu məsələ AMM-in direktoru Samir Abbasovun universitetin rektoru Gülçehrə Rixsiyeva ilə görüşündə müzakirə olunub.

Gülçehrə Rixsiyeva dövlət başçılarımızın səyləri nəticəsində ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəyə qaldırıldığını və təhsil sahəsində əməkdaşlıqda da son zamanlar irəliləyişin əldə olunduğunu qeyd edib. O, universitetdə Türkologiya fakültəsinin 2020-ci ildə yarandığını və uğurla fəaliyyət göstərdiyini vurğulayaraq, sözügedən fakültənin bazasında Azərbaycan dili fakültəsinin də yaradılmasının nəzərdə tutulduğunu bildirib. Rektor bu istiqamətdə Azərbaycan tərəfinin müvafiq dəstəyini xahiş edib.



Rektor 2023-cü ilin fevral ayından sınaq müddəti olaraq universitetdə Azərbaycan dili üzrə dərslərə başlanılacağını, yeni tədris ilindən isə sözügedən fakültəyə qəbul elan ediləcəyini bildirib.

Samir Abbasov Daşkənd Dövlət Şərqşünaslıq Universitetində Azərbaycan dili fakültəsinin yaradılması işinə dəstəyə görə rektora təşəkkürünü bildirib, AMM-in fakültəyə köməklik edəcəyini deyib.

O, həmçinin Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin 100 illiyi münasibətilə 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan olunduğunu diqqətə çatdırıb. Heydər Əliyevin Azərbaycan-Özbəkistan dostluğu, dövlətlərimiz arasında münasibətlərin yüksək səviyyəyə qaldırılmasında müstəsna xidmətlərini nəzərə alaraq, Daşkənd Dövlət Şərqşünaslıq Universitetində yaradılan Azərbaycan dili fakültəsi üçün auditoriyaya Heydər Əliyevin adının verilməsi təklif edilib və təklif qəbul olunub.

Samir Abbasov "Heydər Əliyev auditoriyası"nın çoxfunksiyalı olacağı, orada kitabxananın, Azərbaycanın tarix və mədəniyyətinə aid guşənin, filmlərimizin nümayişinin təşkil ediləcəyini bildirib.

## Türk xalqlarının qədim mədəni kodu onların dilləridir

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva Qırğız Respublikası Prezidenti yanında Dövlət Dil və Dil Siyasəti üzrə Milli Komissiyanın sədri Kanıbek Osmonaliyev ilə görüşüb.

Görüşdə Günay Əfəndiyeva rəhbərlik etdiyi təşkilatın ortaq türk irsinin qorunması, bərpası və təbliği istiqamətində fəaliyyəti barədə söz açıb.

Kanıbek Osmonaliyev Qırğızıstanda dil siyasətinin təkmilləşdirilməsi, o cümlədən qırğız xalqının mənəvi dəyərlərinin dirçəlişi və inkişafında dövlət dilinin rolunun artırılması istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verib.

Söhbət zamanı türk xalqlarının qədim mədəni kodu və irsi olan türk dillərinə hərtərəfli dəstəyin vacibliyi barədə yekdil fikir bildirilib, həmçinin əməkdaşlıq üçün perspektiv imkanları müzakirə edilib.

Görüşdə Qırğız Respublikasının Azərbaycandakı səfiri Kayrat Osmonaliyev, Türk Dövlətləri Təşkilatının baş katibinin müavini Yerjan Mukaş, "Qırğıztest" Dövlət Qurumunun direktoru Batma Topoeva-Stavinskaya iştirak ediblər.

# Vyanada azərbaycanlı sənətçilərin iştirakı ilə konsertlər

Azərbaycan sənətçilərinin iştirakı ilə Avropanın musiqi mərkəzi Vyanada növbəti konsert proqramları keçirilib.

Azərbaycan Akademik Birliyinin təşkilatçılığı və ölkəmizin Avstriyadakı səfirliyi, Diaspora İş üzrə Dövlət Komitəsi və Vyanadakı Azərbaycan Mədəniyyət Mərkəzinin dəstəyi ilə dekabrın 19-da gerçəkləşən konsertdə Avstriyada yaşayan azərbaycanlı musiqiçilər – Ayan Məmmədli (fortepiano), Abuzər Manafzadə (fortepiano) və Orxan Cəlilov (vokal) iştirak ediblər.

"Şuşa İli" və 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təşkil olunan musiqi axşamında Azərbaycan bəstəkarlarının əsərlərindən və xalq mahnılarından ibarət proqram təqdim olunub.

Konsertdən öncə Azərbaycanın Avstriyadakı səfiri Rövşən Sadıqbəyli və Azərbaycan Akademik Birliyinin sədri Kamal Əkbərov çıxış edərək soydaşlarımızı qarşıdan gələn əlamətdar gün münasibətilə təbrik edib, həmçinin "Şuşa İli" çərçivəsində görülən işlərdən söz açıblar.





***

Vyananın "Ehrbar" konsert salonunda gənc azərbaycanlı pianoçu, bəstəkar və dirijor, beynəlxalq müsabiqələr laureatı Abuzər Manafzadə konsert proqramı ilə çıxış edib.

Avstriyada fəaliyyət göstərən "Culture Meeting Point" mədəniyyət təşkilatının dəstəyi ilə keçirilən konsertdə Abuzər Manafzadə bəstəkarlar Fridrix Şopen, Modest Musorqski, Mauris Ravel, Erik Satinin və özünün bəstələdiyi əsərləri ifa edib.

O hər ifadan öncə tamaşaçılara bəstəkar və əsər, eləcə də əsərin xarakterik xüsusiyyətləri barədə məlumat verib. Konsertdə M.Musorqskinin "Bir sərginin rəsmləri" əsəri və A.Manafzadənin "Xocalıya" kompozisiyası xüsusilə böyük maraqla qarşılanıb.

Qeyd edək ki, "Culture Meeting Point" təşkilatının keçirdiyi "Xalis klassika" adlı silsilə konsertlər gənc istedadlı musiqiçiləri üzə çıxarmaq və geniş auditoriyaya tanıtmaq məqsədi daşıyır.

## Romada muğam və musiqi mədəniyyətimizə dair ustad dərsi

İtaliyadakı səfirliyimizin təbiliyində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzində (AMM) italiyalı musiqisevərlər üçün ustad dərsi təşkil olunub.

Əməkdar artist, Prezident mükafatçısı, tarzən Sahib Paşazadə qonaqlara Azərbaycanın muğam sənəti və musiqi mədəniyyəti barədə ətraflı danışıb. Diqqətə çatdırıb ki, Azərbaycan muğamı 2008-ci ildə UNESCO-da "Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısı"na salınıb. Bundan başqa, Azərbaycan tarı və onun ifaçılıq sənəti 2012-ci ildə, kamança simli musiqi alətinin hazırlanması və ifaçılıq sənəti isə 2017-ci ildə sözügedən siyahıya daxil edilib.

Sonra tarzən Sahib Paşazadə, beynəlxalq müsabiqələr laureatı, gənc xanəndə Kamilə Nəbiyeva və Əməkdar artist, kamança ustası Xəyyam Məmmədovun ifasında Azərbaycan milli musiqisindən nümunələr səslənib. Azərbaycan muğamı italiyalı musiqisevərlər tərəfindən böyük maraqla qarşılanıb.



Həmçinin beynəlxalq müsabiqələr laureatı, pianoçu Səidə Tağızadə və tarzən Sahib Paşazadə Azərbaycan və İtaliya musiqisinin nümunələrini ifa ediblər.

Qonaqlar AMM-in ekspozisiya zallarında sərgilənən və Azərbaycan tarixini əks etdirən incəsənət nümunələri ilə də tanış olublar.

# "Xudayar təsnifi" yapon pianoçunun aranjimanında

"Xudayarın ifasında mahnını dinlədikcə azərbaycanlı gəncin Vətən sevgisini daha çox anladım"



"Xudayar təsnifi" kimi məşhurluq qazanmış "Vətən yaxşıdır" mahnısı (söz: Əliağa Vahid, musiqi: Əlibaba Məmmədov) yaponiyalı pianoçu Yusey İnui tərəfindən aranjiman edilib.

Musiqiçi AZƏRTAC-ın Yaponiyadakı xüsusi müxbirinə müsahibəsində bu barədə danışıb. O deyib ki, ilk dəfə həmin mahnı üzərində işləmək təklifi alanda Azərbaycan haqda məlumatı olmayıb və bunu sifarişçilərə söyləməyə utanıb. Təcili internetdə araşdıraraq ölkəmiz haqqında daha çox məlumat toplamağa çalışıb. Mahnının orijinalı ilə yanaşı, digər Azərbaycan musiqisi nümunələri ilə tanış olub: "İlk təəssüratım heyrətamiz idi. Sizin musiqiniz öz gözəlliyi ilə məni heyran etdi. Bu xalqı, onun qədim və zəngin mədəniyyətini indiyədək tanımadığıma görə özümdən utandım".

Sonra sifarişçilər ona mahnının tarixi haqqında danışıblar. "Bu, həqiqətən, heyrət doğuracaq bir hekayə idi. Xudayarın ifasında mahnını dinlədikcə bu azərbaycanlı gəncin ürəyindən axıb dilinə gələn Vətən sevgisini daha çox anladım və bu hissləri aranjiman etdiyim musiqidə canlandırmağa çalışdım. Bu hisslər mənim ilham mənbəyimə çevrildi. Mahnı üzərində işləyərkən onun dinamizmini və gücünü ritmlərlə, hüznünü və kədərini isə melodiya və akkordlarla ifadə etməyə çalışdım. Yaponiya dinləyicilərinin bu musiqini daha yaxşı anlaması üçün isə mahnının quruluşuna və akkordlarına müəyyən əlavələr etdim. Onun kədərini təqdim etmək üçün intro və intermediyadan yararlandım. Nəticə etibarilə həm yaponların, həm də Azərbaycan xalqının bəyənəcəyi bir aranjiman yarada bilmişəmsə, bu, məni çox sevindirir", – deyə pianoçu bildirib.

"Xudayar təsnifi"ni ifa edərkən keçirdiyi hisslər barədə suala cavab verən pianoçu bildirib ki, mahnının daşıdığı mənanı dərindən başa düşdüyünə görə onu bütün qəlbi ilə hiss edir: "Düşünürəm ki, bu musiqini dinləyən hər bir insan yalnız münaqişələrə deyil, həm də onun gətirdiyi ağrılı duyğulara və gərgin anlara baxmayaraq, irəliləmək üçün özündə güc hiss edir. Bu ağrıacını dəf edərək gələcəyə daha böyük ümidlə baxmağa başlayır. "Xudayar təsnifi" üzərində çalışarkən insanlara bu inamı aşılayacaq bir musiqi nümunəsi yaratmağa çalışdım və düşünürəm ki, buna nail ola bildim. Mahnını məhz bu hissləri qəlbimdə yaşayaraq ifa etdim".

## Xronoqraf

# Tarixdə bu gün

Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 217 il əvvəl...

**27 dekabr 1805-ci ildə** Qarabağ və Şəki xanlıqlarını ələ keçirəndən (may 1805) sonra Şirvan xanlığı üzərinə yürüşə başlayan rus qoşunları Şamaxı şəhərinə daxil olublar. Şirvan xanlığı çar Rusiyasına birləşdirilib.

### 104 il əvvəl...

**26 dekabr 1918-ci ildə** Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti Fətəli xan Xoyskinin rəhbərliyi ilə 3-cü hökumət kabinetini təsdiqləyib. Yeni koalisiya hökumətində 14 nazir, o cümlədən parlamentdə 10 yer ayrılmış rus icmasının təmsilçisi olaraq 3 nazir vardı. Cümhuriyyət rəhbərliyi bununla həm rus icmasını parlamentdə iştiraka təşviq etmək (rus deputatlar 1919-cu ildə parlamentə qatıldılar), həm də demokratik əsaslı hökumətlə Bakıdakı ingilis komandanlığının dəstəyini qazanmaq istəyirdi.

### 90 il əvvəl...

**27 dekabr 1932-ci ildə** SSRİ-də məcburi pasport sistemi və yaşayış yeri üzrə qeydiyyat rejiminə keçid elan edilib. Sovetləşmədən sonra ölkə daxilində pasportlar (pasport yalnız xaricə səfər üçün verilirdi) çarizmin qalığı kimi ləğv edilmişdi. Lakin tezliklə insanların sərbəst hərəkətinin sovet idarəçilik rejimi ilə ziddiyyət təşkil etdiyi üzə çıxdı. SSRİ XKS-nin qəbul etdiyi qərara əsasən, pasport-qeydiyyat rejimini pozanlara qarşı inzibati, hətta cinayət məsuliyyəti tətbiq olunmağa başlandı.

### 83 il əvvəl...



**27 dekabr 1939-cu ildə** Türkiyə tarixində ən dəhşətli zəlzələdən biri baş verib. Ərzincan, Sivas və Samsun vilayətlərini yerlə yeksan edən təbii fəlakət nəticəsində 50 mindən çox insan həlak olub. Sərt qış tələfatın miqyasının böyük olmasında xüsusilə ağır rol oynamışdı.

### 43 il əvvəl...

**25 dekabr 1979-cu ildə** Sovet İttifaqı hərbi kontingentinin Əfqanıstana yeridilməsinə başlanılıb. 1978-ci ildə qurulmuş Əfqanıstan Demokratik Respublikası (ƏDR) ilə SSRİ arasında əməkdaşlıq haqqında müqavilə vardı. Lakin 1979-cu ilin sentyabrından Əfqanıstan Xalq Demokratik Partiyasının baş katibi və İnqilabi Şuranın sədri olan Hafizulla Əminin fəaliyyəti SSRİ-ni qane etmirdi. ƏDR rəhbərliyində Əminə müxalif qüvvələrin müraciəti və sözügedən müqavilə əsas götürülərək Əfqanıstana ordu yeridildi. Dekabrın 27-də "Alfa" qrupu Kabildəki Prezident sarayını ələ keçirdi, Hafizulla Əmin qətlə yetirildi. "KQB"nin adamı Bəbrək Karmal ölkənin rəhbəri elan edildi.

### 31 il əvvəl...





**25 dekabr 1991-ci ildə** SSRİ-nin Prezidenti Mixail Qorbaçov vəzifəsindən istefa verib. Moskva vaxtı ilə saat 19.00-da Mərkəzi Televiziyanın birbaşa efirində çıxış edən Qorbaçov Müstəqil Dövlətlər Birliyinin elan edilməsindən sonra bu vəzifədə qalmasının qeyri-mümkün olduğunu deyib. Saat 19:38-də Kreml üzərində SSRİ-nin bayrağı endirildi və Rusiyanın üçrəngli bayrağı qaldırıldı.

Eyni gündə Rusiya Sovet Federativ Sosialist Respublikası (RSFSR) Ali Sovetinin qərarı ilə dövlətin adı Rusiya Federasiyası elan edilib.

Həmin gün axşam Vaşinqtonda ABŞ Prezidenti Corc Buş SSRİ-nin müttəfiq respublikalarının, o cümlədən Azərbaycanın müstəqilliyinin tanınması barədə bəyanat verib.

**26 dekabr 1991-ci ildə** SSRİ Ali Sovetinin sonuncu iclası keçirilib. İclasda ittifaqla bağlı bütün qurumların, o cümlədən SSRİ Ali Sovetinin fəaliyyətinə xitam verilib. Sovet İttifaqı quruluşunun 69-cu ildönümünə dörd gün qalmış rəsmən süqut etdi.

***

**25 dekabr 1991-ci ildə** Prezident Ayaz Mütəllibov "Latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında" fərman verib. Sənədə əsasən, yeni əlifbaya keçid bir neçə ilə başa çatmalı idi. Lakin bu proses çox uzandı. 2001-ci il iyunun 18-da Prezident Heydər Əliyev latın qrafikalı əlifbaya keçidin başa çatdırılması barədə fərman imzaladı və həmin il avqustun 1-dən proses tam həyata keçirildi.

**25 dekabr 1991-ci ildə** Azərbaycan Parlamenti – Ali Sovetin Milli Şurası 31 dekabrın "Dünya azərbaycanlılarının həmrəyliyi günü" elan olunması barədə qərar qəbul edib.

**25 dekabr 1991-ci ildə** İran və İsrail Azərbaycanın müstəqilliyini tanıyıb. İranla diplomatik münasibətlər 1992-ci il martın 12-də, İsraillə diplomatik münasibətlər isə 1992-ci il aprelin 7-də quruldu.

**26 dekabr 1991-ci ildə** Kuba və Avstraliya Azərbaycanın müstəqilliyini tanıyıb. Kuba ilə 1992-ci il martın 27-də, Avstraliya ilə 1992-ci iyunun 19-da diplomatik əlaqələr quruldu.

**26 dekabr 1991-ci ildə** Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin Xankəndi şəhərindəki sonuncu azərbaycanlı ailələr ermənilər tərəfindən qovulub. 1989-cu ildən şəhərdə azərbaycanlı əhaliyə (5 min nəfərdən çox) qarşı aparılan etnik təmizləmə başa çatıb.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5078. **Sifariş:** 3762
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641